UNİKAL

№37 (2171) 6 oktyabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Azərbaycan qlobal siyasət meydanında həlledici oyunçuya çevrilir



Səh.9



## Deputat Milli Məclisdə oliqarxlardan danışdı

"Rəqabət Məcəlləsinin qəbul edilməsində elə bir problem olmalı deyil. Bu Məcəllənin icra mexanizminin həyata keçirilməsi üçün rəqabət orqanının funksiyası və vəzifələri qeyd olundu. Bu bizim üçün əhəmiyyətli məsələlərdən biridir". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Rəqabət Məcəlləsinin ikinci oxunuşda müzakirəsi zamanı deputat Vahid Əhmədov deyib. "Bu, çox ciddi Məcəllədir və bir sıra insanların həyatına, onların biznesinə təsir edəcək. Təklif edərdim ki, Mikayıl müəllim rəqabət orqanı ilə əlaqədar məsələni dövlət başçısı ilə müzakirə etsin. Söhbət elə bir sahibkarlara gəlib çatacaq ki, orada müəyyən dəyişikliklər etmək lazım olacaq. Açıq danışmaq lazım gələrsə, bu, müəyyən oliqarxların fəaliyyətinə təsir edə bilər. Rəqabət orqanının işləməsi bizim üçün çox vacibdir.

Səh.8

## "Ermənistan rəhbərliyinin ağlı olsa, Zəngəzur dəhlizinə razılaşar"



Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, Azərbaycanın İspaniyanın Qranada şəhərində keçiriləcək görüşdən imtina etməsindən, Ermənistanın növbəti dəfə sülh danışıqlarını uzatmasından, Fransanın XİN rəhbərinin Ermənistana səfərindən və onlara hərbi yardım edəcəyi ilə bağlı çıxışından...

Səh.4

## "Prezident haqsız rəqabətlə mübarizə barədə tapşırıqlar verib" - Nazir



Rəqabət Məcəlləsi antiinhisar fəaliyyəti sahəsində əsas tənzimləyici çərçivə olacaqdır. Sənəd beynəlxalq praktika elmi prinsiplər və mövcud iqtisadi şərait nəzərə alınmaqla hazırlanıb. "Unikal" xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisin İqtisadi siyasət...

Səh.4

## Arayik Harutyunyan cinayət məsuliyyətinə cəlb edildi




Azərbaycan Baş Prokurorluğu və DTX tərəfindən kompleks tədbirlər həyata keçirilir. Arayik Harutyunyan cinayət məsuliyyətinə cəlb edilib. "Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətləri birgə məlumat yayıb. Qeyd olunub ki, Azərbaycanın...

Səh.3

# Rəhman Rəhmanov: "Həkim dedi ki, oğlumun ölümünə iki saat qalıb"



***Əməkdar artist Rəhman Rəhmanov sentyabrın 19-u qəfil dünyasını dəyişən müğənni oğlu Emil Rəhmanoğlunun ölümündən ilk dəfə söz açıb.***

"Unikal" bizim media-ya istinadla xəbər verir ki, sənətkar "Bizimləsən" ictimai-sosial verilişinə müsahibəsində bildirib ki, Emil xəstəxananın reanimasiya şöbəsinə yerləşdirildiyi günün səhərisi həkim onlara övladının cəmi iki saat yaşaya biləcəyini deyib.

"Emil tək evdən yox, eldən getdi. Gecə saat 02:00 idi, həyat yoldaşım yuxudan oyatdı məni. Dedi ki, "qorxma oğlun Emilin vəziyyəti pisləşib". Emilin huşu özündə olmayıb. Əvvəlcə məni tanımadı. Öpüb, qucaqladım, baxdı, amma yenə məni tanımadı, sifəti çöndü. Səhər saat 09:00-a kimi xəstəxananın reanimasiya şöbəsində qaldıq. Səhər həkim gəlib söylədi ki, "Siz kişisiniz, mən də kişi. Kişi kişiyə söz deyər. Amma siz özünüzü bir az sıxın, narahat olmayın". Soruşdum ki, axı nə olub? Həkim cavabında dedi ki, "oğlunuzun iki saat vaxtı qalıb. Emil, bu dünyanı tərk edir".

Təəccüb içində dedim ki, həkim axı siz nə danışırsız. Biz Emili bura gətirmişik ki, siz onu müalicə edəsiniz. Həkim başa saldı ki, böyrəklər fəaliyyətini itirib, baldır nahiyyəsində qan damarda tromb yaradıb. Beləcə ağ və qara ciyərlərin də fəaliyyəti dayanıb və ürəyi aparata qoşublar. Həkim necə demişdi elə də oldu. Yəni iki saat sonra 11:00-da Emil dünyasını dəyişdi", - deyə aktyor vurğulayıb.

R.Rəhmanoğlu həmçinin müsahibəsində əlavə edib ki, Emil ölümündən bir ay əvvəl ona vəfat etsə qardaşı İlhamın yanında dəfn edilməsini deyib: "İnsanın ölməyi onun ürəyinə əvvəlcədən damır. Mən məzuniyyətdə idim, ürəyim isə Emilin yanında idi. Dedim buna nə isə olacaq. Hər an Emilin həyat yoldaşı Sabrina xanımdan zəng gözləyirdim. Bir ay əvvəl isə Emil mənə söylədi ki, "ata, məni qardaşım İlhamın məzarının üstünə apar". Mən, həyat yoldaşım, oğlum Emil və onun xanımı Sabrina yollandıq qəbiristanlığa. Emil qardaşının məzarı üstə dayanıb, hönkür-gönkür ağladı. Dedi ki, "ata, mən ölsəm, məni qardaşım İlhamın yanında dəfn et". Bu isə Emilin son vəsiyyəti idi".

Qeyd edək ki, Emil Rəhmanoğlu 44 yaşında xəstəxanada dünyasını dəyişib. O, Biləcəri ərazisində yerləşən məzarlıqda 19 il əvvəl vəfat edən qardaşı İlhamın yanında dəfn edilib.

# Müğənni Elnur Məmmədov nazirliyə müraciət etdi

***Müğənni Elnur Məmmədov Təhsil Nazirliyinə müraciət edib.***

Sənətçi rus bölməsində təhsil alan şagirdlərin kitab çətinliyi çəkdiyini bildirib. Elnur vurğulayıb ki,hazırlanan tarix kitabları Azərbaycan dilindədir: "Təhsil Nazirliyinə müraciət edirəm: Övladları rus bölməsində oxuyan valideynlər mənə dəstək olarlar. Elə uşaqlar var ki, tam rusdillidir, heç Azərbaycan dilini bilmir. Bacımın övladı altıncı sinifdə oxuyur. Soruşuram ki, dərs necədir? Deyir ki, Azərbaycan tarixi kitabı sırf Azərbaycan dilindədir. Uşağa çox çətindir, oxuya bilmirlər. Azərbaycan tarixi dərsindən qiymətləri aşağıdır. Rus bölməsi üçün çətindir. Biz bizim tarixi bir neçə dildə yaymalıyıq. Bizim üçün önəmlidir. Təhsil Naziriyi Azərbaycan tarixini rus dilində təqdim etsinlər. Hətta uşaq deyir ki, xaricdə yaşayan uşaqlar belə məktəbdən oxuya bilmədikləri üçün çıxıblar".





# Renka: "Hər şey çox yaxşıdır, amma..."

***"Hər şey çox yaxşıdır. İşim, uşaqlarım, ailəm, sağlamlığım, sevdiyim... Amma nə isə çatmır".***

"Unikal" olay-a istinadən bildriir ki, bu sözləri rəqqasə Renka (Rəna Ağamuradova) deyib.

"Bilmirəm niyə ruh düşkünlüyüm var. Hər gün özümü başa düşmək istəyirəm. Özümü ələ almalıyam" - deyə Renka qeyd edib.

# Xatirədən 3 minlik ayaqqabısını tənqid edənlərə cavab

***Müğənni Xatirə İslamın şortla fotoları müzakirələrə səbəb olub.***

Sənətçi cins şortunu qızılı hündürdaban ayaqqabı və mavi köynəklə tamamlayıb. Xatirə paylaşımına"Yazın gəlsin: nə ilə nə tutur, nə tutmur. Görəsən, bu şərhləri yazanlar stili nə dərəcədə anlayır? Boş verin, əsas mən sizi sevirəm" sözlərini yazıb.



İfaçı ayaqqabısının köhnə tərz olduğunu yazan izləyicisinə "Bu ayaqqabı "Versace" 2023-cü il kolleksiyasıdır" cavabını verib.

Qeyd edək ki, "Versace"nin sözügedən model ayaqqabıları 1825 dollar, yəni 3102 manat dəyərindədir.

# "Brilyantları rahat yeyə bilməyəcəksiniz!" - Rühəngiz Allahverdiyeva

***Əməkdar artist Rühəngiz Allahverdiyevanın qızılları oğurlanıb.***

Müğənni bu haqda "Elgizlə izlə" verilişində danışıb. O bildirib ki, bununla bağlı heç bir şikayət də etməyib:

"Evimdə nə brilyant var idisə, hamısı oğurlandı. O qədər də çox deyildi. Özü də onları öz zəhmətimlə almışdım. Qızılları mənə hansısa bir kişi bağışlamamışdı və ya almamışdı. Millətimin toylarına gedib pul qazanıb, qəpik-qəpik yığıb brilyantları almışam. Oğurluqla bağlı polisə şikayət etməmişəm. Onları kim götürübsə, rahatlıqla yeyə bilməyəcək".

# Deputat Milli Məclisdə oliqarxlardan danışdı

## Vahid Əhmədov: "Bu Məcəllə onların fəaliyyətinə təsir edə bilər..."



***"Rəqabət Məcəlləsinin qəbul edilməsində elə bir problem olmalı deyil. Bu Məcəllənin icra mexanizminin həyata keçirilməsi üçün rəqabət orqanının funksiyası və vəzifələri qeyd olundu. Bu bizim üçün əhəmiyyətli məsələlərdən biridir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Rəqabət Məcəlləsinin ikinci oxunuşda müzakirəsi zamanı deputat Vahid Əhmədov deyib.

"Bu, çox ciddi Məcəllədir və bir sıra insanların həyatına, onların biznesinə təsir edəcək. Təklif edərdim ki, Mikayıl müəllim rəqabət orqanı ilə əlaəqdar məsələni dövlət başçısı ilə müzakirə etsin. Söhbət elə bir sahibkarlara gəlib çatacaq ki, orada müəyyən dəyişikliklər etmək lazım olacaq. Açıq danışmaq lazım gələrsə, bu, müəyyən oliqarxların fəaliyyətinə təsir edə bilər. Rəqabət orqanının işləməsi bizim üçün çox vacibdir. Həmin orqanın işləməsindən Məcəllənin və ölkə iqtisadiyyatının taleyi həll olunacaq. Rəqabət komissiyanın tərkibi dövlət başçısı səviyyəsində təsdiq olunsun. Bununla bağlı digər ölkələrin fəaliyyət formalarına baxmışam. Qeyd edim ki, çoxunun səlahiyyəti Baş nazirə, prezidentə tabedir. Ona görə də buna baxılması yaxşı olar",- deyə o bildirib.

***Anar Kəlbiyev***

# "Bu, nə konstitusiya qanunudur, nə də quran ayəsi" - Deputat



***"Gəlin, birinci Rəqabət Məcəlləsini qəbul edək. Bu, nə konstitusiya qanunudur, nə də quran ayəsidir. Sonra lazım olanda bəzi dəyişikliklər olacaq. Yəni, həyat bunu göstərəcək".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Rəqabət Məcəlləsinin ikinci oxunuşda müzakirəsi zamanı deputat Rüfət Quliyev deyib.

"Mən təklif edirəm ki, gəlin, birinci Rəqabət Məcələsini qəbul edək. Çünki bu, nə konstitusiya qanunudur, nə də quran ayəsidir. Sonra lazım olanda bəzi dəyişikliklər olacaq. Yəni, həyat bunu göstərəcək. Digər məsələ odur ki, bəzi ekspertlər, hətta deputatlar təklif edirlər ki, inflyasiyanı cilvolamaq üçün biz dövlətin gücündən və məmurların qüdrətindən istifadə edək, qoymayaq qiymətlər artsın. Mən bunu dəfələrə tənqid etmişəm. Dövlət yalnız və yalnız istehlak səbətində olan bəzi malların qiymətini tənzimləyə bilər, qalan məsələlərə toxunmamalıdır. İqtisadiyyat nazirindən xahiş edirəm ki, bu söz-söhbətlərin kökünü kəsməliyik. Heç kim gedib hansısa hotelə və ya pitixanaya qiymət göstərişi verməməlidir",- deyə o bildirib.

# "Ermənistanda revanşist ideyaların təbliği narahatlıq doğurur" - Ombudsman

***Erməniəsilli sakinlərin hüquqlarının təmini və reinteqrasiyası istiqamətində Azərbaycan tərəfinin sürətli addımlar atması fonunda Ermənistanda bəzi dairələr tərəfindən revanşist ideyaların təbliği və Azərbaycanofobiya siyasətinin davam etdirilməsi narahatlıq doğurur.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatı məlumat yayıb.

Qeyd olunub ki, insanların hüquq və azadlıqlarının səmərəli təmini və sülh prosesinin dəstəklənməsi naminə bu cür nifrət motivli təbliğatın qarşısı alınmalıdır.

# Elmar Məmmədyarov sayağı növbəti absurd...

## Vaxtilə evdən işləyən sabiq nazir niyə fəallaşıb?

***Son vaxtlar sabiq xarici işlər naziri Elmar Məmmədyarov mətbuat səhifələrində tez-tez görünür, böyük həvəslə ölkədəki aktual ictimai-siyasi məsələləri, xüsusilə də Qarabağda baş verən son hadisələri təhlil edir. Əslində burada təəccüblü heç nə yoxdur: XİN-in keçmiş başçısı kimi Məmmədyarovun təhlilləri, açıqlamaları hamı tərəfindən maraqla qarşılanmalı, həvəslə oxunmalıdır, lakin müşahidələrdən belə görünür ki, qətiyyən elə deyil. Keçmiş nazirin dediklərinə cəmiyyətdə heç hansı maraq yoxdur.***

Səbəb şübhəsiz ki, Elmar müəllimin özündə gizlidir. Əvvəla, onun Azərbaycan üçün taleyüklü məqamlardan birində etdiyi səhv unudulmayıb. Söhbət 2020-ci ildə, ermənilərin Tovuz istiqamətində törətdiyi silahlı təxribat zamanı Məmmədyarovun iş başında olmamasından gedir. Bu məsələ ilə bağlı ölkə başçısı həmin il iyulun 15-də Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında danışmışdı. Məlum olmuşdu ki, həssas bir məqamda ovaxtkı XİN başçısı işə çıxmırmış. Prezident bildirmişdi: "Xarici İşlər Nazirliyi nə ilə məşğul idi? Harada idi? Ayın 12-də hadisələr baş verəndən sonra biz iş yerindəydik. Baş Nazir iş yerində, mən iş yerində səhərə qədər. Müdafiə naziri, Baş Qərargah rəisi, həmçinin Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, Daxili İşlər naziri, Xarici Kəşfiyyat Xidmətinin rəisi, Təhlükəsizlik Şurasının katibi gecə səhərə qədər iş yerində. Mən Xarici İşlər nazirini tapa bilmədim. Mən Əli Əsədovdan soruşdum, haradadır. Sənə nə dedi? De.

Baş Nazir Əli Əsədov: Cənab Prezident, soruşdum, dedi ki, mən evdən işləyirəm.

Prezident İlham Əliyev: Necə, evdən işləyirəm?

Baş Nazir Əli Əsədov: Bəli, dedi ki, evdən işləyirəm. Mən Elmar Məmmədyarova zəng etdim. Sizin dediklərinizi ona dedim, soruşdum ki, bu hadisəni sən nə vaxt eşitmisən və harada olmusan? Dedi, evdən işləmişəm. Dedim, saatbasaat mənə de, harada olmusan? Yenə dedi ki, evdən işləmişəm. Günorta saat 3-də eşitmişəm. Daha sonra dedi ki, təqribən saat 6-da, 7-də Hikmət Hacıyevlə telefonla danışıb. İndi Siz dediniz, Hikmət Hacıyev Sizin təlimatları ona çatdırandan sonra deyib ki, bizim BMT-dəki nümayəndəmiz Yaşar Əliyevlə danışıb. Bax, bu qədər. Mən Sizin verdiyiniz tapşırıqları ona çatdırdım, dedim ki, belə olmaz. Biz hamımız iş yerindəyik. Prosesləri cənab Prezident idarə edir. Xarici İşlər naziri olaraq sən bunu, bunu, bunu et - Sizin dediyiniz tapşırıqları. Soruşdum ki, evdə niyə işləyirsiniz? Sən gəl iş yerinə, kabinetinə və s. Tapşırıq belə oldu. Ondan sonra hadisələr məlumdur.



Prezident İlham Əliyev: Aydındır. Daha dərinə getmək istəmirəm. Bir çox şey deyə bilərəm. Hesab edirəm bu, kifayətdir. Ancaq biz hamımız - həm rəhbər vəzifələrdə olanlar və ictimaiyyət bilməliyik real mənzərə nədən ibarətdir ki, düzgün addımlar ataq. Biz hər gün, hər dəqiqə ölkəmizin maraqlarını qorumalıyıq".

Bu hadisədən sonra Məmmədyarovun açıqlamaları cəmiyyətdə niyə maraq doğursun, onun fikirlərinə, tövsiyələrinə, proqnozlarına, hesablamalarına ictimaiyyət tərəfindən ehtiyac duyulsun ki?!

Biz hələ Dövlət Təhlükəsizlik Xidmətinin 2020-ci il iyulun 3-də Xarici İşlər Nazirliyində keçirdiyi əməliyyatını və Nazirlik rəsmilərinin həbsindən sonra bu qurumda ciddi qanunsuzluqların baş verdiyinin üzə çıxmasını demirik. Azərbaycan üçün güc strukturları qədər əhəmiyyətli sayılan Xarici İşlər Nazirliyində geniş miqyasda neqativ halların aşkarlanması müharibə aparan, belə bir şəraitdə yaşayan bir dövlət üçün faciə idi. Azərbaycanın xarici siyasət kursunun həyata keçməsini icra edən qurumun adının qanunsuz viza satmaqdan tutmuş, başqa cinayətkar hadisələrdə hallanması haqlı olaraq ölkə mediası və ictimaiyyəti tərəfindən utancverici hal kimi qiymətləndirilmişdi. İndi həmin vaxt quruma rəhbərlik etmiş, sadalanan biabırçılıqlara ya "yaşıl işıq" yandırmış, ya da göz qoymuş Məmmədyarovun sanki bütün bunlar baş verməyibmiş kimi fəallaşması, ekspert qismində rəylər, mülahizələr irəli sürməyə başlaması anlaşılmazdır.

Sabiq nazir mediada müxtəlif suallara cavab verməyə maraqlıdırsa, çox gözəl. Onda biz yuxarıdakı məqamları belə bir kənara qoyub ona sadə sual verək: onun nazir olarkən oğlu Emin Məmmədyarovun adına ABŞ-da, Manhettendə ümumilikdə 4,2 mln. ABŞ dollarından bir qədər çox nağd pul ödəməklə iki mənzil aldığı üzə çıxmışdı, Elmar müəllim də həmin mənzillər barədə münasibət öyrənmək istəyən mediaya cavab olaraq bunu "şəxsi məsələ" adlandırmışdı. Lakin cəmiyyət hələ də bilmək istəyir - nazir maaşı ilə o bahalı mənzilləri həqiqətən almaq mümkündürmü?

***Sənan Mirzə***

# Azərbaycan qlobal siyasət meydanında həlledici oyunçuya çevrilir

***Ötən gün İspaniyanın cənubunda yerləşən tarixi Əndəlüs vilayətinin Qranada şəhərində Avropa Siyasi Birliyinin sammiti keçirilib. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev Fransanın təxribatçı mövqeyinə görə sammitdə iştirakdan imtina edib. Buna səbəb Fransanın destruktiv mövqeyi, eləcə də Paris və Berlinin Türkiyənin toplantıda iştirakı ilə bağlı fikir ayrılığıdır.***

Belə bir şəraitdə Azərbaycan tərəfi danışıqlar aparmaqdan imtina edib. Məlumata görə, rəsmi Bakı Azərbaycan-Ermənistan-Fransa-Almaniya-Avropa İttifaqı Şurası formatında beştərəfli görüşdə Türkiyənin də iştirak etməsini təklif edib. Lakin buna imkan verilməyib, bu məsələdə Fransa və Almaniya xüsusi canfəşanlıq nümayiş etdirib. Buna görə Azərbaycan bu görüşdən imtina edib və Prezident İlham Əliyev Qranadaya getməyib. Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AK Partiya) sözçüsü Ömər Çelik bildirib ki, Ankara İlham Əliyevin Qranada görüşündən imtina etməsini təqdir edir. "Avropa Qarabağın azad edilməsindən narahatdır. Məhz buna görə də onlar Türkiyə Prezidentinin Qranada görüşündə iştirak etməsini istəmir. Qafqazda həqiqətən sülh istəyənlər bu görüşdə ilk olaraq Rəcəb Tayyib Ərdoğanın iştirak etməsini istəməlidir, - o qeyd edib.

Azərbaycan Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə aparılan Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında olan üçtərəfli Brüssel prosesini və regional sülh gündəliyini dəstəkləyir və bu mənada sülh müqaviləsi daxil olmaqla, bir çox sülh təşəbbüslərinin müəllifi məhz Azərbaycandır. Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev X hesabında yazıb. O qeyd edib ki, Fransanın regionda qərəzli və militarizasiya siyasətinə, Cənubi Qafqazda regional sülh və sabitliyə zərər gətirən və Avropa İttifaqının Cənubi Qafqaz siyasətini risk altına qoyan addımlarına və rəsmi Bakının israrına baxmayaraq, region ölkəsi olaraq qardaş Türkiyənin beşli formatda (Azərbaycan, Ermənistan, Avropa İttifaqı, Fransa və Almaniya) olan görüşdə iştirakına imkan verilməməsinə görə Azərbaycan Qranada da iştirak etməməyə qərar verib: "Biz, həmçinin, ev sahibi olaraq İspaniyanın da bu formatda olan görüşdə iştirakının tərəfdarı idik. Bəzi beynəlxalq media resurslarında bunun Azərbaycanın Ermənistanla təmaslardan və ya danışıqlardan imtina etməsi kimi təqdim edilməsi düzgün deyildir. Azərbaycan Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında Brüsseldə tezliklə üçtərəfli görüşlərə hazırdır. Azərbaycan tərəfi eyni zamanda Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi və sülh müqaviləsi üzrə birbaşa və ikitərəfli dialoqu və danışıqları dəstəkləyir. Fürsətdən istifadə edərək İspaniyadan olan həmkarlarımızı və dostlarımızı Avropa Siyasi İcmasının Qranada görüşünü uğurla təşkil etmələri münasibətilə təbrik edirik və Ermənistan-Azərbaycan dialoquna töhfə vermək niyyətlərinə görə təşəkkür edirik".



Milli Məclisin deputatı Sahib Alyev bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Makronun Avropa Birliyinin liderlərindən biri olaraq boy göstərməyi planlaşdırdığı Qranada danışıqlarına getməməsi təkcə Fransanın bizim regiondakı təfriqəçi fəaliyyətinə cavab kimi qiymətləndirilməməlidir. Onun fikrincə, qarşıda həmən ölkəni daha təsirli demarşlar gözləyir: "Bu, Fransadan da çox Avropa Birliyinə edilmiş xəbərdarlıqdır ki, bizdə o quruma əvvəlki güvən yoxdur. Səbəbini isə Şarl Mişel özünün son açıqlamalarında və yandaşları Jozep Barrelin Fransanın xarici işlər naziri kimi davranışında, Toivo Klaarın terrorçulara qahmar çıxmasında axtarmalıdır. Yeri gəlmişkən, Azərbaycanın dövlət başçısının oktyabrın 2-də Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbini qəbul etməsi yəqin ki, nə Şarl Mişelin, nə də həmən Qranada görüşünə qatılmağı planlaşdıran Almaniya ilə Fransanın rəhbərlərinin diqqətindən yayınıb. Və onlar Anqlikan Kilsəsinin dini rəhbərinin qəbulda nədən Azərbaycanla Vatikan arasında əlaqələrdən, oradakı katakombaların bərpası işinə ölkəmizin töhfəsindən ayrıca söz saldığını yəqin bilməmiş deyillər. Sonda onu deyim ki, regiondakı proseslərə qərbdəki bəlli çevrələrin əsl səlibçi yanaşması sərgilədikləri bir dönəmdə Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbinin Azərbaycana gəlməsini mən dövlətimizin maraqları baxımından çox önəmli addım sayıram".

**Politoloq Elxan Şahinoğlu isə hesab edir ki,** Azərbaycan prezidenti İlham Əliyevin İspaniyanın Qranada şəhərində oktyabrın 5-nə planlaşdırılan beştərəfli görüşdən imtinası doğru qərardır. Onun fikrincə, Fransa və onun yedəyində sürünən Almaniya rəsmiləri ermənipərəst mövqelərini gücləndiriblər: "Onlar balansı Ermənistanın xeyrinə pozduqlarına görə vasitəçi ola bilməzlər. Halbuki, Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşlər Avropa İttifaqının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə keçirilirdi və bu görüşlərdə nisbətən müsbət atmosfer formalaşmışdı. Fransa prezidenti Emmanuel Makron masada oturmağa başladıqdan bu yana Brüsselin vasitəçiliyində irəliləyiş olmayıb. Şarl Mişelin Makronun təzyiqi ilə masa iştirakçılarının sayını artırması yanlış qərar idi. İlham Əliyevin "masada Fransa və Almaniya varsa Türkiyə də olmalıdır" tələbi yerindədir, təklifi qulaqardına vuracaqlarsa Brüsselin vasitəçiliyi heçə enəcək. Bir də ki, sülh sazişi ilk növbədə Ermənistana lazımdır, Azərbaycan Qarabağda qayda-qanun yaradır".

Politoloq onu da vurğulayıb ki, ABŞ və Avropa İttifaqının Rusiya ilə birgə sentyabrın 17-də İstanbulda Qarabağ məsələsini müzakirə etmələri Vaşinqton və Brüsselin Azərbaycana təsir imkanlarının olmadığının göstəricisidir. "Azərbaycana təsir edə bilsəydilər Rusiya ilə dialoqa ehtiyacları olmazdı. Görüşün antiterror əməliyyatından iki gün əvvəl keçirilməsi isə ondan xəbər verir ki, Vaşinqton və Brüssel Azərbaycanın qəti addımlar atacağı barədə məlumatlı idi. Əslində bu heç kimə sirr deyildi, Azərbaycan cəmiyyəti sentyabr ayı ərzində Qarabağda anti-terror əməliyyatını gözləyirdi. Vaşinqton və Brüssel Azərbaycanı ancaq Rusiyanın durdura biləcəyini düşündüklərindən Kremlə İstanbulda görüşlə bağlı müraciət ediblər. ABŞ və Avropa İttifaqı başqa heç bir məsələ ilə bağlı Kremllə dialoq aparmırlar, erməni separatizmini xilas etmək məsələsində isə Moskva ilə dialoqda qəbahət görməyiblər. Bunlar düşünüblər ki, Rusiya erməni separatizmini xilas etmək naminə Azərbaycanı durduracaq. Kremlin belə bir niyyəti olmayıb. Buna görə də Azərbaycanın uğurlu anti-terror əməliyyatından sonra Avropa İttifaqının rəhbəri Şarl Mişel "Rusiya erməniləri satıb" ifadəsini işlədib. Rusiya yüzilliklər boyu erməni separatizmini bəsləyib. Rusiyanın bu siyasəti olmasaydı nə Ermənistan, nə də Qarabağda erməni separatizmi olardı, biz məsələni çoxdan bitirərdik. Rusiya sadəcə özü üçün indiki ağır geosiyasi vəziyyətdə və Ermənistanın ona arxa çevrdiyi dövrdə Azərbaycana ərazi bütövlüyünü təmin etməyə mane olmayıb. Bu satqınlıq deyil, reallıqla hesablaşmaqdır" - deyə politoloq fikrini tamamlayıb.

**Politoloq Turab Rzayev Bakıvaxtı.az-a açıqlamasında bildirib ki,** Azərbaycanın görüşdən imtina etməsi ilə bağlı haqlı səbəbləri var. Ekspertin sözlərinə görə, Qranadada keçirilməsi planlaşdırılan görüşdə Almaniya və Fransa iştirak edəcəkdi: "Azərbaycanın tələbi o idi ki, əgər söhbət Brüssel formatının genişləndirilmiş formasından gedirsə, o zaman müzakirələrdə Türkiyə də iştirak etsin. Çünki Almaniya nisbətən neytral görünsə də, əslində Ermənistana daha yaxındır. Fransa isə tamamilə İrəvanın tərəfindədir. Belə bir format çərçivəsində keçiriləcək görüşdə hansı müsbət nəticədən söhbət gedə bilər?!".

Müsahibimiz qeyd edib ki, Fransa moderator kimi açıq-aşkar anti-Azərbaycan mövqe sergiləyir. Bu ölkənin rəhbərliyindən tutmuş, digər rəsmilərinə kimi hamısı birmənalı olaraq Azərbaycanı əsassız ittiham edir, suçlayır: "Bununla yanaşı, parlamentində Azərbaycanla dostluq qrupunu ləğv edir. Belə bir ölkənin vasitəçiliyi effektli ola bilərmi?! Vasitəçi neytral və ədalətli olmalıdır. Bu baxımdan rəsmi Bakı görüşdə Türkiyənin iştirakını şərt qoymuşdu. Ancaq Berlin və Paris Ankaranın görüşə qatılmasına etirazını bildirdi".

Politoloqa görə, digər məqam isə odur ki, adətən Almaniya və Fransa neytrallığı pozduqda Avropa İttifaqı Şurasının prezidenti nisbətən daha obyektiv yanaşırdı. Ancaq Şarl Mişelin sonuncu çıxışı da Azərbaycan əleyhinə oldu: "Ona görə də Bakının görüşdən imtinası ən doğru qərar oldu".

***M.İbrahimli***

# İlham Əliyev və Almaniya Kansleri arasında telefon danışığı olub



***Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında regional məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb. Olaf Şolts region ölkələrinin ərazi bütövlüyünə və suverenliyinə Almaniyanın dəstəyini ifadə edib. O vurğulayıb ki, ölkəsi Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin rəhbərliyi ilə aparılan Brüssel prosesini dəstəkləyir. Almaniya Kansleri BMT-nin ölkəmizdəki rezident əlaqələndirici missiyasının Azərbaycanın Xankəndi şəhərinə səfərinin müsbət bir addım olduğunu deyərək bunu yüksək qiymətləndirib.

Dövlət başçısı Azərbaycanın regional sülh gündəliyinə sadiqliyini və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə aparılan Brüssel prosesini yaxından dəstəklədiyini vurğulayıb.

Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağın erməni sakinlərinə göstərilən humanitar yardımları qeyd edib, miqrasiya, sosial müdafiə sahələri ilə bağlı yerində erməni sakinlərə xidmətlər göstərildiyini deyib, müvafiq qeydiyyat proseslərinin başladığını və bunun üçün də ayrıca portalın müəyyən edildiyini bildirib.

Dövlət başçısı Azərbaycanın bu sahədə təmin etdiyi şəffaflığın nümayişi olaraq, BMT-nin ölkəmizdəki rezident əlaqələndirici ofisinin və BMT-nin ixtisaslaşmış təsisatlarının nümayəndələrindən ibarət qrupun əraziyə səfər etdiklərini bildirib, onların da mülki əhaliyə və mülki-ictimai infrastruktura heç bir ziyanın qeydə alınmadığı ilə bağlı müvafiq bəyanatla çıxış etdiklərini diqqətə çatdırıb.

# Məhkəmə Bako Saakyan, Arkadi Qukasyan və David İşxanyanla bağlı qərar verdi

***Azərbaycan Respublikasının Qarabağ bölgəsində fəaliyyət göstərmiş qanunsuz silahlı birləşmələrin ötən müddətdə törətdikləri terrorçuluq əməlləri ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində cinayət işi davam etdirilir.***



"Unikal" DTX-yə istinadən xəbər verir ki, araşdırmalar zamanı Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki və İşxanyan Davit Rubeni tərəfindən Azərbaycan Respublikası ərazisində müvafiq olaraq qondarma "Dağlıq Qarabağ Respublikasının prezidentləri" və "prezidenti vəzifəsinin müvəqqəti icraçısı" və digər adlar altında Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılması və fəaliyyətinin təşkilinə, habelə idarələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə insanların həlak olmasına və digər ağır nəticələrə səbəb olan basqınlar təşkil edən həmin qanunsuz silahlı birləşmələrin silah, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchiz edilməsinə, mütəşəkkil dəstə halında qanunsuz olaraq odlu silah, onun komplekt hissələrinin, döyüş sursatı, partlayıcı qurğular əldə edilməsinə, başqasına verilməsinə, saxlanılmasına, daşınmasına və gəzdirilməsinə, pul vəsaitlərini və digər əmlakı tamamilə və qismən, bilavasitə və dolayısı ilə həmin qanunsuz silahlı birləşmələrin terror aktları törətməsi istiqamətində istifadə edəcəyini bilərək həmin məqsədlə qəsdən toplamaq, ayırmaq və verməklə terrorçuluğun maliyyələşdirilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Eləcə də, qeyd olunan şəxslər tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan Respublikasının ərazisində həmin əməllərin törədilməsi üsulları, odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan, zəhərli maddələrdən, digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə hazırlığı üzrə təlimlərin təşkil edilməsi, mütəşəkkil dəstə halında odlu silahdan və silah qismində digər predmetlərdən istifadə etməklə milli ədavət və düşmənçilik niyyəti ilə təkrarən terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərarlar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi ilə müşayiət olunan partlayış, habelə əraziləri davamlı şəkildə minalama və digər hərəkətlər törədərək terror aktlarının təşkil edilməsinə əsaslı şübhələr müəyyən edilmişdir. Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanın Xankəndi şəhərində anadan olmuş 1957-ci il təvəllüdlü Arkadi Qukasyan, həmin şəhərdə anadan olmuş 1960-cı il təvəllüdlü Bako Sahakyan və Azərbaycanın Xocavənd rayonunda anadan olmuş 1958-ci il təvəllüdlü Davit İşxanyan 3 oktyabr 2023-cü il tarixində saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1, 214.2.2, 214.2.3 (mütəşəkkil dəstə tərəfindən təkrar odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 214-3.2 (terrorçuluq məqsədi ilə təlimlər təşkil etmə), 228.3 (mütəşəkkil dəstə tərəfindən təkrar qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, saxlama, daşıma və gəzdirmə) və 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qruplar yaratma və onların fəaliyyətində iştirak etmə) maddələri ilə ittiham elan edilməklə cinayət məsuliyyətinə cəlb edilmişlər. Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bako Saakyan, Arkadi Qukasyan və David İşxanyan barəsində həbs qətimkan tədbiri seçilib. Qarabağdakı separatçıların keçmiş "prezident"ləri Arkadi Qukasyan (1997-2007) və Bako Saakyan (2007-2020), "Daşnakasutyun" partiyasının "Qarabağ təmsilçisi" və separatçı rejimin keçmiş parlament sədri David İşxanyan barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətinin müstəntiqinin verdiyi təqdimatlara baxılıb. Səbail rayon Məhkəməsində hakim Ülviyyə Şükürovanın sədrliyi ilə keçirilən prosesdə Arkadi Qukasyan barəsində təqdimat təmin olunub və onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. Bako Saakyan və David İşxanyan barəsində isə təqdimatlara məhkəmənin hakimi Azər Tağıyevin sədrliyi ilə baxılıb. Həmin şəxslər barəsində də təqdimatlar təmin edilib və 4 aylıq həbs qətimkan tədbiri seçilib.

# Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb və məsələ bitib - Putin

***Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb.***



"Unikal" xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin Valday Beynəlxalq Diskussiya Klubunun plenar iclasında bildirib.

O, Ermənistanın Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını və məsələnin bununla bitdiyini söyləyib: "Ermənistan Qarabağın statusu məsələsini həll edib. Qarabağ rəsmi olaraq Azərbaycanın tərkibinə keçib".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Rusiya sülhməramlılarının Qarabağdakı postları ləğv edildi

***Rusiya sülhməramlı kontingenti Azərbaycanın Qarabağ bölgəsinin Ağdər, Əsgəran və Şuşa rayonlarında keçmiş qoşunların təmas xətti boyunca yerləşən müvəqqəti müşahidə məntəqələrini bağlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyinin bülletenində məlumat verilib.

Bülletendə qeyd olunur ki, gün ərzində Rusiya sülhməramlı kontingentinin məsuliyyəti zonasında atəşkəs rejiminin pozulması qeydə alınmayıb.

# Hikmət Hacıyev Qazaxıstan səfiri ilə görüşdü

***Azərbaycan və Qazaxıstan beynəlxalq arenada uğurla əməkdaşlıq edir.***



"Unikal" Qazaxıstan səfirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel ilə görüşündə bildirilib.

Görüşdə sürətlənən ikitərəfli əməkdaşlıq templəri məmnunluqla qeyd olunub. Tərəflər həmçinin regional və beynəlxalq gündəmdə olan aktual məsələləri müzakirə ediblər.

Xüsusi diqqət nəqliyyat-logistika əməkdaşlığı və kommunikasiya mövzularına yetirilib.

Eyni zamanda, 3 noyabr 2023-cü il tarixində Astanada keçiriləcək Türk Dövlətləri Təşkilatının X yubiley Zirvə Görüşünün önəmi vurğulanıb.

Azərbaycan Prezidentinin köməkçisi qardaş Qazaxıstana dəstəyinə, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı, regional məsələlərin həlli ilə bağlı konstruktiv yanaşmasına görə təşəkkürünü bildirib.

Səfir Alim Bayel Qazaxıstanın regionda sülh və qarşılıqlı faydalı əməkdaşlığın tərəfdarı olduğunu qeyd edib.

# Prezident yeni səfirlərin etimadnaməsini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin etimadnaməsini qəbul edib.***

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi. Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin və ölkə rəhbərləri ilə arasında dostluq münasibətlərinin olduğunu qeyd edən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı bütün dövrlərdə - həm işğal zamanı, həm də torpaqlarımızın işğaldan azad olunmasından sonrakı dövrdə Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası məsələlərində Səudiyyə Ərəbistanı Krallığının birmənalı şəkildə göstərdiyi mənəvi və siyasi dəstəyi bir daha yüksək qiymətləndirdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyinin ənənəvi xarakter aldığını məmnunluqla qeyd etdi.

İqtisadi əməkdaşlığa toxunan dövlətimizin başçısı enerji sahəsində yaxşı nümunələrin olduğunu bildirərək, Səudiyyə Ərəbistanı şirkətinin Azərbaycanda bu sahəyə böyük sərmayə qoymasının önəmini vurğuladı. Dövlətimizin başçısı bütün digər sahələrdə də əlaqələrimizin yüksək səviyyədə olduğunu dedi. Səfir İssam bin Saleh əl-Cuteyli, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Kral Salman bin Əbdüləziz Al Səudun və Vəliəhd, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.



Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İki Müqəddəs Ocağın Xadiminə və Vəliəhdə çatdırmağı xahiş etdi. Ölkəmizə səfir təyin olunmasından böyük şərəf hissi duyduğunu deyən İssam bin Saleh əl-Cuteyli Azərbaycanın Səudiyyə Ərəbistanı üçün dost və qardaş ölkə olduğunu vurğulayaraq, müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı konkret təlimatlar aldığını bildirdi.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir, ilk növbədə, İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.

Azərbaycan ilə İordaniyanın dost və qardaş, zəngin tarixə malik ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu dedi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birini dəstəklədiyini məmnunluqla qeyd etdi.

Siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev gələcəkdə iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Ömər Bərəkət əl-Nahar paytaxtımızda gedən böyük inkişaf proseslərinin və insanların firavanlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycan haqqında söylədiyi xoş sözlərə görə səfirə minnətdarlığını bildirdi və ona fəaliyyətində uğurlar arzuladı. Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

# Arayik Harutyunyan cinayət məsuliyyətinə cəlb edildi

***Azərbaycan Baş Prokurorluğu və DTX tərəfindən kompleks tədbirlər həyata keçirilir***

Arayik Harutyunyan cinayət məsuliyyətinə cəlb edilib. "Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətləri birgə məlumat yayıb.

Qeyd olunub ki, Azərbaycanın Qarabağ ərazisində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlərin araşdırılması ilə bağlı başlanmış cinayət işləri üzrə Azərbaycan Baş Prokurorluğu və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks tədbirlər həyata keçirilir.

Araşdırmalar zamanı Azərbaycanın Xankəndi şəhərində anadan olmuş, 1973-cü il təvəllüdlü Harutyunyan Arayik Vladimiri tərəfindən Azərbaycan Respublikasının ərazisində qondarma "Dağlıq Qarabağ Respublikasının prezidenti" və digər adlar altında təcavüzkar müharibənin aparılmasında iştirak edilməsi, muzdluların yığılması, onlara təlim keçirilməsi və maliyyələşdirilməsinə, həmçinin onlardan hərbi münaqişədə və hərbi əməliyyatlarda istifadə edilməsinin təşkil olunmasına, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulmasına, silahlı münaqişə dövründə cinayətkar əmr verilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.





Bundan başqa, Arayik Harutyunyan tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılmasına və fəaliyyətinin təşkilinə, cinayətkar birlik halında həmin birləşmələrin silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchizinə, bunlardan istifadə hazırlığı üzrə təlimlərin təşkil edilməsinə, eləcə də qaçaqmalçılıq yolu ilə ölkəmizə gətirilməsinə və terrorçuluğun maliyyələşdirilməsinə əsaslı şübhələr müəyyən olunmuşdur.

İstintaq-əməliyyat tədbirləri nəticəsində, həmçinin, Arayik Harutyunyan tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan Respublikasının ərazilərinin davamlı şəkildə minalanması, cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Azərbaycan Respublikasının Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır nəticələrə səbəb olan ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Arayik Harutyunyan 2020-ci il oktyabrın 28-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilmişdir.

Cari il oktyabrın 3-də Arayik Harutyunyan Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Xankəndi şəhərində saxlanılmış, ona Cinayət Məcəlləsinin 100, 116, 117, 120, 214, 214-1, 214-3, 218, 279-cu və digər maddələri ilə ittiham elan edilmişdir.

Hazırda Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***İnformasiya xidməti***



## "İlham Əliyev mənə açıq şəkildə bildirdi ki..." - Şarl Mişel

***"2 gün əvvəl (Antiterror əməliyyatından - red.) Azərbaycan prezidenti İlham Əliyevlə telefon danışığım oldu, o, mənə açıq şəkildə bildirdi ki, Ermənistana qarşı heç bir ərazi ambisiyaları və tələbləri yoxdur".***

"Unikal" xəbər verir ki, bunu Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel deyib. Siyasətçi bunu açıq şəkildə qeyd etmək lazım olduğunu deyib: "Hesab edirəm ki, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanıyır. Biz Ermənistana hərbi əməliyyatın nəticələrini aradan qaldırmağa kömək edəcəyik. Onu da nəzərə almalıyıq ki, Ermənistan Avropa İttifaqı ilə əlaqələri gücləndirmək istəyir. Biz iki il əvvəl Ermənistana 2 milyard avroluq investisiya paketi ilə bağlı söz vermişdik, bu vədi yerinə yetirməliyik və gecikdirə bilmərik. Ermənistanın bizim dəstəyimizə ehtiyacı var".

***Ağarza Elçinoğlu***

## Azər Zeynalov istefa verdi

***Xəbər verdiyimi kimi, Azər Zeynalov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini vəzifəsindən istefa verib.***



"Unikal"ın məlumatına görə, bu gün altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının növbəti iclası keçirilib.

İclasda ilk olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalovun vəzifəsindən istefası ilə bağlı müraciətinə baxılıb.

Müzakirə olunan məsələ ilə əlaqədar qərar layihəsi oxunduqdan sonra səsə qoyularaq qəbul edilib.

## Şuşada İƏT Nazirlər Şurasının iclası keçiriləcək

***Oktyabrın 10-da Şuşa şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclası keçiriləcək.***

Bu barədə Xarici İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, tədbirdə Azərbaycan Respublikasının Xarici İşlər Naziri Ceyhun Bayramov və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin xarici işlər nazirləri iştirak edəcəklər.

# "Sanksiyalar sərtdir, amma..." - Əli Məsimli



*"Rəqabət Məcəlləsinin üzərində əsaslı dəyişikliklərin edilməsini vacib hesab edirik".*

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında Rəqabət Məcəlləsinin ikinci oxunuşda müzakirəsi zamanı deputat Əli Məsimli deyib.

"İstəyirik ki, Rəqabət Məcəlləsi optimal müddətdə və təkmilləşdirilmiş variantda qəbul edilsin. Bu layihə cəmiyyət üçün daha faydalı olacaq", - deyə deputat bildirib.

Ə.Məsimli qeyd edib ki, bəzi məsələləri sistemli şəkildə təkmilləşdirilib və məntiqi ardıcıllıqla Məcəllədə öz əksini tapsa, yaxşı olar:

"Sanksiyalar sərt və ədalətli olmalıdır. Sanksiyalar sərtdir, amma ədalətliliyinə bir balaca əl gəzdirmək lazımdır. Əgər sahibkar haqlıdırsa, o məhkəməyə müraciət edibsə, Rəqabət Məcəlləsinə görə haqlı olduğu halda məhkəmədən obyektiv qərar almayacaqsa, o zaman bu Məcəllə işləməz. Ona görə də məhkəmə sisteminin ciddi islahatına ehtiyac var. Bizdə rəqabəti haqsız edən amillər çoxdur. Onların içərisində məmur sahibkarlığı əsas rol oynayır. Ona görə də gəlir və xərclərin bəyannaməsi olmalıdır".

***Anar Kəlbiyev***

# "Prezident haqsız rəqabətlə mübarizə barədə tapşırıqlar verib" - Nazir

***Rəqabət Məcəlləsi antiinhisar fəaliyyəti sahəsində əsas tənzimləyici çərçivə olacaqdır. Sənəd beynəlxalq praktika elmi prinsiplər və mövcud iqtisadi şərait nəzərə alınmaqla hazırlanıb.***



"Unikal" xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin oktyabrın 5-də keçirilən iclasında deyib.

"Məcəllə layihəsi rəqabət mühitinin inkişaf etdirilməsi və institusional bazanın möhkəmləndirilməsi istiqamətində inhisarlaşma meyllərinin iqtisadi fəaliyyətə və dövlət büdcəsinə təsirlərinin aradan qaldırılmasına imkan verən əhatəli bir hüquqi çərçivə yaradır. Qanun layihəsi iqtisadi qanunauyğunluqlar çərçivəsində rəqabət neytrallığının təmin edilməsi, hökmran mövqe və bazar gücündən sui-istifadənin qarşısının alınmasına xidmət etməklə yanaşı, təsərrüfat subyektlərinin fəaliyyətinin stimullaşdırılmasına, rəqabət mühitinin qorunmasına və inkişaf etdirilməsinə xidmət edəcək.

Müşahidələr göstərir ki, azad biznes mühiti inkişaf etdikcə, iqtisadi tərəqqi ilə birlikdə bazar uğursuzluqları, inhisarçılıq meylləri, qanundan kənar iqtisadi fəaliyyətin miqyası da genişlənir və iqtisadiyyat üçün bir sıra risklər meydana gəlir. Qanunvericilik bazası adekvat olmadığı hallarda bu risklər iqtisadi fəaliyyətin pozulmasına və inklüziv inkişafının ləngiməsinə səbəb olur. Bu riskləri neytrallaşdırmaq üçün dövlət tənzimlənmənin səmərəliliyinin artırılması prioritet olmalıdır", - deyə M.Cabbarov qeyd edib.

Nazir vurğulayıb ki, Prezident İlham Əliyev haqsız rəqabətin bizim üçün böyük yara olduğunu xüsusi qeyd edib və bununla mübarizə aparılması barədə tapşırıqlar verib.

# "Ermənistan rəhbərliyinin ağlı olsa, Zəngəzur dəhlizinə razılaşar"

## Qabil Hüseynli: "Ancaq Ermənistan razılıq verməsə, blokadada qalacaq, ciddi nəqliyyat problemləri yaşayacaq və yenə də öz niyyətinə uyğun olaraq bölgədəki layihələrdən uzaq düşəcək"

***Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, Azərbaycanın İspaniyanın Qranada şəhərində keçiriləcək görüşdən imtina etməsindən, Ermənistanın növbəti dəfə sülh danışıqlarını uzatmasından, Fransanın XİN rəhbərinin Ermənistana səfərindən və onlara hərbi yardım edəcəyi ilə bağlı çıxışından, Rusiya-Ermənistan münasibətlərinin gərginləşməsinin hansı nəticələrinin ola biləcəyindən və Zəngəzur dəhlizinin nə zaman açıla biləcəyindən danışıb.***

***-Qabil müəllim, Prezident İlham Əliyev Avropa İttifaqı (Aİ), Fransa və Almaniya liderlərinin iştirakı ilə Ermənistanın baş naziri Nikol Paşinyanla görüşün keçirilməli olduğu İspaniyaya (Qranada şəhərinə) getməkdən imtina edib. Buna səbəb Fransanın destruktiv mövqeyi, eləcə də Paris və Berlinin Türkiyənin toplantıda iştirakı ilə bağlı fikir ayrılığıdır. Belə bir şəraitdə Azərbaycan tərəfi danışıqlarda necə iştirak etməli idi?***

-Azərbaycan tərəfi bu görüşdə iştirak etməməkdə tam haqlıdır.Biz həmin görüşə bizi söyənlərin, bununla yanaşı bizi təkləmək istəyənlərin görüşünə getmirdik. Azərbaycan qonşu təcavüzkar ölkə ilə sülh müqaviləsi bağlayıb, bölgədə sülh yaratmaq niyyəti ilə getmək istəyirdi. Orada Fransanın başıboş prezidenti Emmanuel Makronun və yaxud Almaniya kansleri Olaf Şoltsun nə işi var? Avropa Birliyi vasitəçilik etmək istəyirsə, görüşü normal təşkil etməlidir. Onlar Türkiyənin ora gəlməsini və həmin görüşdə iştirak etməsini istəmirsə, o zaman nəyə görə açıq surətdə tərəfkeşlik edən, erməniləri müdafiə edən Makronu ora qatırlar? Zənnimcə, bu görüşdə iştirak edilməməsi doğru addım idi.

***-Bu görüşdə əsas müzakirə olunacaq məsələlərdən biri də Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı olacaqdı. Bu görüşə Ermənistanın tərəfindən olan ölkələrin qatılmaq istəməsi isə onu göstərir ki, İrəvan növbəti dəfə sülh müqaviləsinin bağlanmasından yayınır. Onların sülh müqaviləsini uzatmaqda məqsədi nədir?***

Düşünürəm ki, sülhyaratma prosesi davam edəcək. Amma format başqa olacaq. Bölgə ölkələrinin iştirakı və vasitəçiliyi ilə sülh müqaviləsi üzərində işin aparılması və yaxud onun imzalanması daha yaxşı olardı. Məsələn, Gürcüstan bu prosesə qoşula bilər. Türkiyəni də cəlb edə bilərik. Həmçinin Rusiya da prosesin içərisində olmaq istəyir. Doğrudur, 3+3 variantı da var. Düşündüyüm ən ideal variant isə 2+2-dir. Bunun da reallaşması mümkündür.

***-Fransanın açıq şəkildə tərəf tutmasını siz də qeyd etdiniz. Bildiyiniz kimi, Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna Ermənistanda mətbuat konfransı zamanı qeyd edib ki, Fransa Ermənistana hərbi texnikanın verilməsinə razılaşıb. Fransanın Ermənistanı hər vəchlə silahlandırmağa çalışması nəyə hesablanıb?***

-Fransa bu addımları ilə bölgəni qarışdırmaq istəyir. Bu bir daha onu göstərir ki, Fransa hələ də kolonya təfəkkür tərzindən xilas ola bilməyib. Dünyaya kolonistlərin, müstəmləkəçilərin gözü ilə baxır. Bu bölgədə Fransanın özünün də maraqları var. Xüsusilə ermənipərəstliyini açıq surətdə nümayiş etdirir. Güman edirəm ki, bu məsələdə Fransanın oynadığı mənfi rolu beynəlxalq ictimai rəyə təqdim etmək lazımdır. Silah-sursat yardımı ilə Ermənistanı yenidən müharibəyə hazırlamaq istəyirlər. Onların məqsədlərindən biri də yenidən Ermənistanı qızışdırmaq və bizimlə müharibəyə təhrik etməkdir. Bu, bölgədə müharibə olmasını istəməkdir. Çox təhlükəli oyun oynayırlar. Amma nə edirlərsə, etsinlər, onu da unutmasınlar ki, güclü Azərbaycan dövləti və Ordusu var. Eyni zamanda, güclü müttəfiqlərimizin də olduğunu yaddan çıxarmasınlar. Fransa burada heç nə edə bilməyəcək.

***-Son vaxtlar əsas diqqət çəkən məsələlərdən biri də Rusiya və Ermənistan arasında münasibətlərin gərginləşməsidir. Bu günlərdə Ermənistan parlamenti Roma statusunu qeyd-şərtsiz ratifikasiya edib. Bu məsələ Rusiya tərəfindən də yaxşı qarşılanmayıb. Roma statusunun ratifikasiyası Rusiya-Ermənistan münasibətlərinə necə təsir edəcək?***

-Doğrudur, Rusiya və Ermənistan arasında münasibətlər gərginləşir. Körpülər yandırıla-yandırıla gedir. Son Roma statusunun ratifikasiya edilməsi vəziyyəti ağırlaşdırdı və münasibətləri daha da korladı. Ermənistan açıq surətdə qərbyönümlü siyasət yürüdür, Rusiyadan imtina edir və onun təsir dairəsindən çıxmaq istəyir. Düşünürəm ki, Ermənistanın baş naziri Nikol Paşinyan nə qədərki hakimiyyətdədir, bu xətt dəyişməyəcək. Rusiya isə buna qarşı müxtəlif hədələr və təhdidlər yağdırır. Amma onları həyata keçirmək o qədər də asan məsələ deyil. Yeni formalaşmış status-kvo bir müddət davam edəcək.

***-Əsas məsələlərdən biri də Zəngəzur dəhlizi ilə bağlıdır. Belə ki, Ermənistan tərəfi razılaşmasa, bu layihə İran üzərindən də həyata keçirilə bilər. Sizcə, qarşıdakı dönəmdə Zəngəzur dəhlizi məsələsi necə həll olunacaq?***



-Ermənistanın ağlı olsa, Zəngəzur dəhlizinə razılaşar. Bu layihədən ən çox qazanan və xeyir görən tərəf Ermənistan olacaq. Yox, bu dəhliz İran ərazisindən keçəcəksə, bizim üçün bir qədər maliyyə fərqləri olacaq. İnanmıram ki, bu məsələdə biz nə isə itirəcəyik. Ermənistan razılıq verməsə, blokadada qalacaq, ciddi nəqliyyat problemləri yaşayacaq və yenə də öz niyyətinə uyğun olaraq bölgədəki layihələrdən uzaq düşəcək. Əgər Zəngəzur dəhlizi Ermənistan üzərindən keçsə idi, yaxın bir ilə reallaşacaqdı. Amma İran üzərindən keçməsi həm ürəkbulandırıcıdır, həm də əlavə maliyyə xərcləri tələb edəcək. Ona görə də çətin olacaq.

***Anar Kəlbiyev***

# Elm və Təhsil Nazirliyinin ənənəvi və gərəksiz xəbərdarlığı

## Nazirlər dəyişir, lakin Müəllimlər Günü ilə bağlı "köhnə hamam, köhnə tas" qalır

***Elm və Təhsil Nazirliyi (ETN) hər il olduğu kimi, bu il də 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü ərəfəsində valideynlərə ənənəvi müraciət ünvanlayıb.***

Müraciətdə qeyd olunub ki, təhsil ictimaiyyətinin başlatdığı #MənimMüəllimim çağırışına qoşularaq müəllimlərə xoş söz, təbrik mesajlarının çatdırılması onlar üçün ən böyük hədiyyədir: "Elm və Təhsil Nazirliyi olaraq bildiririk ki, Beynəlxalq Müəllimlər Günü münasibətilə valideyn və şagirdlər tərəfindən müəllimlərə hər hansı formada hədiyyələrin verilməsi və ya vəsait toplanması yolverilməzdir.

Bu kimi hallarla rastlaşdıqda nazirliyin "Qaynar xətt" xidmətinə (146) anonim olmadan məlumat verməyinizi xahiş edirik. Bununla əlaqədar Bakı Şəhəri üzrə Təhsil İdarəsi və regional təhsil idarələrinə tapşırıqlar verilib. Məsələ ilə bağlı müvafiq monitorinqlər aparılacaq".

Beynəlxalq Müəllimlər Günü artıq arxada qalıb, nazirliyin açıqlamasında bəhs etdiyi monitorinqdən isə hələlik xəbər yoxdur. Belə monitorinq aparılıbmı, aparılıbsa hansı qaydada həyata keçirilib? Ən əsası, monitorinq zamanı nələr aşkarlanıb? Ümid edək ki, bu suallara ETN-dən qısa vaxtda, ətraflı açıqlama veriləcək.

Hələliksə istər mediada, istərsə də sosial şəbəkələrdə yazılanlardan belə aydın olur ki, bu dəfə də Beynəlxalq Müəllimlər Günündə dəyişən çox şey olmayıb - pul yığımları davam edib. Daha doğrusu, dəyişiklik var, lakin yığılan pulların həcmində... Məsələn, Abşeron məktəblərində ötən illərdə hər uşaq üçün 20-30 manat tələb edilirdisə, bu il həmin məbləğ 40-50 manatadək artıb.

İndi isə son bir neçə gündə bu mövzu ilə bağlı yayılan xəbərlərə göz ataq. Qlobal.az-ın əldə etdiyi məlumata görə müəllimlər günü ilə əlaqədar valideynlərdən pul toplanan məktəblərdən biri Nərimanov rayonunda fəaliyyət göstərən 177 saylı məktəbdir. 177 saylı orta məktəbdə "valideyn komitəsi" tərəfindən aparılan pul toplama kampaniyasının əsasən ibtidai siniflərdə aparıldığı deyilir. Məktəbin ibtidai siniflərində ümumilikdə 350-ə yaxın şagirdin təhsil aldığı, hər şagirdə görə isə valideynlərdən 20 manat pul yığıldığı iddia edilir.

AbzasMedia-nın məlumatına görə isə Beynəlxalq Müəllimlər Günü üçün 220 nömrəli məktəb-liseydə də valideynlərdən pul yığılır. Bu barədə adının gizli saxlanılmasını istəyən valideynlər məlumat veriblər. Onlar deyiblər ki, təkcə Müəllimlər Günü üçün yox, elə dərs açılandan bir gün sonra müxtəlif səbəblərlə bağlı onlardan pul istənilir. Valideynlərdən birinin sözlərinə görə, danışıqlar əsasən "WhatsApp" platformasında valideynlər üçün nəzərdə tutulan qrupda aparılır. "Sentyabrın 16-da bizə dedilər ki, məktəb təmir olunub, buna görə də 50 manat göndərin. Sinfi bəzəmişdilər, bu 50 manatın içində o da var idi. İş dəftərləri üçün də ayrıca 10-12 manat yığdılar. Pul yığmaqda fəallıq edən valideynlər də var. Biz deyirik ki, Müəllimlər Günü üçün 20 manata imkanımız çatır, amma onlar deyirlər ki, yox, 50 manatdan yığılacaq. Əlavə fənn müəllimləri üçün də pul yığırlar. Burada isə deyirlər, məcbur deyil, ancaq elə şərait yaradırlar ki, məcbur oluruq uşağımıza görə verək. Pulu valideyn komitələri yığır, müəllimlərə evlərində verirlər", - deyə o bildirib.




Sözügedən məktəbdən belə bir halla bağlı məlumatlarının olmadığı deyilib. ETN-dən isə bildirilib ki, qeyd olunan halla bağlı araşdırma aparıldığı vurğulanıb. Sitat: "Qeyd edilən məsələ ilə əlaqədar müvafiq araşdırma aparılır. Araşdırmanın nəticələri barədə məlumat veriləcək. Anonim məlumatlar əsassız olaraq məktəb və müəllim nüfuzuna xələl gətirməklə bərabər, onların araşdırılması, iddianın nə dərəcədə həqiqətə uyğun olmasını müəyyən etmək də səmərəli nəticə vermir. Qanunvericiliyin tələblərinə uyğun olaraq anonim məlumatlar istisna olmaqla, daxil olan bütün müraciətlər operativ şəkildə araşdırılır və müvafiq tədbirlər görülür".

Bakivaxti.az da əksər məktəblərdə Beynəlxalq Müəllimlər Günü ilə bağlı pul yığıldığını yazıb. Mövzu ilə bağlı danışan təhsil üzrə ekspert Kamran Əsədov bildirib ki, hər il Elm və Təhsil Nazirliyi orta məktəblərdə ciddi mübarizə apar-sa da, Müəllimlər Günü öncəsi pul yığılır. Bu proses hər il bir çox məktəblərdə baş verir: "Oktyabrın ilk həftəsi Valideyn Komitəsinin sinif rəhbəri üçün yığdığı pullar və s. kimi xoşagəlməz proses ictimaiyyətdə ikrah oyadır". Ekspertin fikrincə, maraqlı məqam odur ki, bu bayramların obyekti daha çox xanım müəllimlər olur: "Diqqəti çəkən odur ki, əvvəllər məktəblərdə əlamətdar günlərlə bağlı pulu direktor, müavini, sinif rəhbəri və ya müəllimlər yığırdısa, indi bunu Müəllim-Valideyn Komitəsi edir. Əminliklə deyə bilərəm ki, orta məktəblərdə direktorun icazəsi olmadan pul yığıla bilməz".

Onu da deyək ki, sosial şəbəkələrdə də Beynəlxalq Müəllimlər Günü öncəsi pul yığımları ilə bağlı paylaşımlar edilib, bu ürəkbulandıran "ənənənin" hələ də davam etməsinə etirazlar bildirilib. "Hələ də" deyirik, çünki təhsil sahəsində nazirlər dəyişilir, hansısa islahatlardan, yeniliklərdən danışılır, lakin hər il 5 oktyabr ərəfəsində, eləcə də bir sıra digər əlamətdar günlərdə (o cümlədən, 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində) pul yığımı məsələsi yenidən aktuallaşır.

Görünür, səlahiyyətli qurumlar məktəbin nüfuzuna, müəllimin adına xələl gətirməkdən başqa bir işə yaramayan, əməlli-başlı bazara çevrilən bu pulyığımlarına qarşı ənənəvi xəbərdarlıqlarla, hansısa nəticəsiz monitorinqlərlə kifayətləndikcə mənzərə də dəyişməyəcək...

***Sənan Mirzə***



## "Müəllimin maaşı ölkədəki orta aylıq əmək haqqından aşağıdır" - Ekspert

***"Müəllimin orta aylıq əmək haqqı ölkədəki orta aylıq əmək haqqından aşağıdır".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı ekspert Eldəniz Əmirov deyib. O bildirib ki, müəllimlərin orta aylıq əməkhaqqı 2023-cü ilin sentyabr ayına olan məlumata görə, 830 manat təşkil edib:

"2023-cü ilin yanvar-may aylarında Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı isə 917 manat olub. Aydın məsələdir ki, müəllim əməyinin qiyməti nə bir dəstə güllə, nə hansısa hədiyyələrlə, nə də 900-1000 manat əmək haqqı ilə verilə bilməz.

Müəllimin qiyməti onun yaratdığı dəyərdədir. Bu dəyər isə bizim savadımız, şəxsiyyətimiz, etikamız və cəmiyyətdəki rolumuzdur. Odur ki, biz hansısa əmək haqqı məbləği ilə müəllim əməyini qiymətləndirə bilmərik. Amma heç olmasa müəllim rəqəmlərə baxanda görməməlidir ki, onun orta aylıq əmək haqqı, ölkədəki orta aylıq əmək haqqından aşağıdır.

Böyük ümidlərlə gözləyirəm ki, müəllimlərin əmək haqqının yüksəlməsinə imkan verən sertifikasiya prosesləri bütün istiqamətlər üzrə maksimal sürətlə tamamlanacaq və ən qısa müddətdə müəllimlər təkcə sözdə deyil, aldıqları əmək haqqında da orta statistik səviyyədən yuxarıda olacaqlar".

## Arayiki hansı cəza gözləyir?

***Xəbər verdiyimiz kimi, "Dağlıq Qarabağ Respublikasının keçmiş prezidenti" Arayik Harutyunyan Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs edilib.***

"Unikal"ın məlumatına görə, Arayikə qarşı Cinayət Məcəlləsinin 9 maddəsi ilə ittiham irəli sürülüb. Çoxsaylı cinayət əməllərində təqsirləndirilən Arayik Harutyunyanı hansı cəza gözləyir?

- Maddə 100 (Təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma) 12 ildən 20 ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
- Maddə 116 (Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma) 10 ildən 20 ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
- Maddə 117 (Silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə) 12 ildən 20 ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır
- Maddə 120 (Qəsdən adam öldürmə) 14 ildən 20 ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
- Maddə 214 (Terrorçuluq) 10 ildən 14 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
- Maddə 214-1 (Terrorçuluğu maliyyələşdirmə) 10 ildən 14 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
- Maddə 214-2 (Terrorçuluğa açıq çağırışlar) 5 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
- Maddə 218 (Cinayətkar birlik (təşkilat) yaratma) 8 ildən 15 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
- Maddə 279 (Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) 3 ildən 8 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

***Seymur Əli***



# "Xəzri-2023" birgə taktiki təlimi davam edir

***Azərbaycan və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının, eləcə də müşahidəçi qismində İran İslam Respublikasının HDQ-nin nümayəndə heyətinin iştirakı ilə ölkəmizdə keçirilən "Xəzri-2023" birgə taktiki təlimində növbəti epizodlar üzrə fəaliyyətlər məşq edirilir.***

Bu barədə "Unikal"a Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib. Məşqlərdə terror qruplaşmaları tərəfindən zəbt edilmiş adanın dəniz xüsusi təyinatlı və dəniz piyada bölmələri tərəfindən azad edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Azərbaycan və Qazaxıstan HDQ-nin hərbi qulluqçuları keçirilən məşqlərdə verilən tapşırıqların icra edilməsində yüksək peşəkarlıq nümayiş etdiriblər.

# "Sülhməramlıların Qarabağda sayılı günləri qalıb" - Zatulin

***Rusiya Federasiyası sülhməramlı qoşunlarının artıq Qarabağda müdafiə edəcəyi kimsə yoxdur.***



"Unikal" xəbər verir ki, bunu Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini Konstantin Zatulin deyib.

"Bütün ermənilərin Qarabağı tərk etməsi o deməkdir ki, onlar artıq bizim sülhməramlı qoşunlarımızın onları qorumağa qadir olduğuna inanmırlar. Aydın məsələdir ki, hər halda bizim hərbi qruplaşmanın Qarabağda sayılı günləri qalıb, axı orada adam qalmasa, kimləri qoruyacaqlar? Xankəndi şəhərində bizim qoşun yol hərəkəti qaydalarına nəzarət edəcək?", - Zatulin bildirib.

Deputat əlavə edib ki, Gürcüstanda Azərbaycandan nümunə götürmək, Abxaziya və Cənubi Osetiyanı da eyni şəkildə geri almaq zərurətindən danışılır: "Təbii ki, belə olmayacaq, amma Saakaşvililərin orada və başqa yerlərdə yenidən başlarını qaldırması Azərbaycan nümunəsinin yoluxucu olduğunu bir daha deməyə əsas verir".

# Xankəndi və Xocavənddə 2 stansiya quraşdırılacaq

***Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 11 hidrometeoroloji, 5 meteoroloji stansiya var.***

"Unikal" xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov bildirib. Onun sözlərinə görə, gələcəkdə Xankəndi, Xocavənd və digər ərazilərdə 2 aqrometeoroloji stansiyanın quraşdırılması planlaşdırılır:

"Bu stansiyalar sözügedən ərazilərdə kənd təsərrüfatı sahəsinin, ümumilikdə iqtisadiyyatın inkişafına öz töhfəsini verəcək".

# Azərbaycan səhiyyəsində üçtirəliyə son qoyulur

## "Unikal"ın yazdıqları növbəti dəfə təsdiqlənir: yeni nazirlik yaradıla bilər

***İki ay öncə "Unikal" qəzetində Azərbaycan səhiyyəsində ciddi problemə, müzakirə və mübahisə mövzusuna çevrilən bir mövzuya toxunmuşduq. Qəzetimizin avqust ayındakı ilk sayında Azərbaycan səhiyyəsində faktiki olaraq üçtirəliyin hökm sürməsindən, bunun isə əhaliyə keyfiyyətli tibbi xidmət göstərilməsinə mane olmasından danışılan həmin yazıda bildirmişdik ki, hansısa tibbi xidmət üçün müraciət edən vətəndaşı Səhiyyə Nazirliyi TƏBİB-ə, TƏBİB İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, o da yenidən Səhiyyə Nazirliyinə yönəldir. Süründürməçiliklərdə hövsələdən çıxan vətəndaş isə borc-xərc edib üz tutur özəl tibb müəssisələrinə...***

Yazıda vurğulanırdı ki, hətta həkimlər də bu üçtirəliyin səhiyyə sektorunda çaşqınlıq yaratmasından, yersiz narazılıqlara yol açmasından şikayətçidirlər. Məsələn, həkim-radioloq Aydın Əliyevin ölkədə səhiyyə siyasətinin düzgün qurulmamasından giley-güzar etdiyini xatırlatmışdıq. Sitat: "...səhiyyə siyasətini normalda həyata keçirməli olan qurum Səhiyyə Nazirliyidir. Faktiki isə Azərbaycanda bu dəqiqə tibbi xidməti göstərən TƏBİB-dir. O da İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə (İTSDA - red.) aiddir... Hazırda səhiyyə sahəsində haçalanma, tirələnmə və intriqa var ki, bunun da əziyyətini xalq çəkir".

Mütəxəssis əlavə eləmişdi ki, hazırda həm İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, həm TƏBİB-ə, həm də Səhiyyə Nazirliyinə inamsızlıq var: "Ölkədə tibbi xidməti həyata keçirən həkimlərdir... Həkim, tibb bacısı, kömək personal və digərlərinin əksəriyyəti isə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən narazıdır... İnsanlarımız da keyfiyyətli tibbi xidmət tələb edir ki, onlar da haqlıdır. Çünki işləyən vətəndaşların məvacibindən 2%, işlədiyi müəssisənin büdcəsindən 4% tutulur, işləməyən insanların - uşaqların pulunu da dövlət ödəyir. Yəni sığortanın pulları ödənilir. Amma xidmət göstərən tibb işçisinə oradan qəpik-quruş çatır. Bir həkim bəzən 80-ə qədər xəstəni müayinə edir. Bu qədər insanın şikayətini dinləmək, onlara xidmət göstərmək asan məsələ deyil. İnsan mənəvi cəhətdən çox yorulur, axı həkim də bir insandır? Bütün bunların müqabilində isə həkimə verilən pul qəpik-quruş olur ki, bu da həkimi hövsələdən çıxarır. Mənim həkim dost-tanışlarım çoxdur, lakin bundan razılıq edən hələlik görməmişəm" (yenisabah.az).

Qeyd edək ki, Azərbaycan səhiyyəsində yaranmış üçtirəlik, bunun yaratdığı problemlər, nəticə etibarilə isə həm tibb işçiləri, həm də vətəndaşlarda yaratdığı narazılıq və narahatlıq hələ 2 il öncə də gündəmə gəlmiş, ciddi müzakirə mövzusuna çevrilmişdi. Həmin vaxt məsələ ilə bağlı açıqlama verən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirmişdi ki, bu gün səhiyyədə tibbi xidmətin qurulması, həm İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, həm TƏBİB, həm də Səhiyyə Nazirliyi tərəfindən göstərilən xidmətlər bizim arzu etdiyimiz səviyyədə deyil: "İndiki məqam üçün TƏBİB-in İTSDA-nın tabeliyində yaradılması doğru addım idi. Tamamilə yeni struktur, yeni idarəetmə, yeni yanaşma köhnə, özünü doğrultmamış Səhiyyə Nazirliyinin tabeliyində yaradılsa, əvvəlkilərin təkrarı olacaqdı. Bu mənada yeni baxışların ortaya qoyulması üçün Səhiyyə Nazirliyindən kənarda struktur formalaşmalı idi. Amma prinsipial baxımdan icbari tibbi sığorta tam oturuşandan sonra TƏBİB-in İTSDA-dan ayrılması, müstəqil qurum kimi fəaliyyət göstərməsi, yaxud da Səhiyyə Nazirliyinə birləşdirilməsi doğru addım olardı. Çünki dünya təcrübəsi də göstərir ki, sifariş verən təşkilatla icra edən təşkilat vahid qurumda olanda, effekt vermir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tibbi xidmətləri sifariş verən qurumdur..."



Yazıda o da vurğulanırdı ki, son vaxtlar məlum mövzunun yenidən aktuallaşması isə TƏBİB-in İTSDA-dan ayrılaraq Səhiyyə Nazirliyinə birləşdiriləcəyinə dair iddiaların da gündəmə gəlməsini şərtləndirib. Bundan başqa, adıçəkilən qurumun rəhbərliyində də ciddi dəyişiklik olacağına dair fikirlər dolaşır. "Bir sözlə, TƏBİB-in yaxın gələcəkdə İTSDA-nın tabeliyindən çıxarılaraq müstəqil quruma çevrilməsi, ya da Səhiyyə Nazirliyinə birləşdirilməsi kifayət qədər real göründüyü kimi, bu publik şəxsin İdarə Heyətinə yeni sədr təyinatı da sürpriz qərar sayılmayacaq" deyə qeyd etmişdik.

Yola salmaq üzrə olduğumuz həftə "Unikal"ın iki ay öncə yazdıqlarını təsdiqləyən xəbərlər yayılıb. Bizim.Media-ya məlumat verən mənbənin sözlərinə görə, Azərbaycanda yeni nazirlik yaradılacağı ilə bağlı məlumatlar dolaşır. Belə ki, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və bu qurumun nəzdində fəaliyyət göstərən TƏBİB vahid ad altında birləşərək, Səhiyyə və Sığorta Nazirliyinə çevriləcək.

Maraqlısı budur ki, millət vəkili Fazil Mustafa da problemlərin həlli ilə bağlı yeni nazirliyin yaradılması təklifini irəli sürüb. Deputat bildirib ki, yeni nazirliyin yaradılması məsələsi mümkündür. Sitat: "Təbii ki, bu, hökumətin vəzifəsinə aid olan məsələdir. Onların səlahiyyəti var ki, zərurət olduğu halda bu istiqamətdə addımlar atılsın. Mənim isə təklifim ondan ibarətdir ki, Azərbaycanda problemlərin həlli nazirliyi yaradılmalıdır. 100 nazirliyə ehtiyac yoxdur. Problemləri həll etmək lazımdır. Çünki biri o birinin üzərinə atır və problemlər həll edilməmiş qalır..."

Beləliklə, görünən odur ki, qəzetimizin iki ay öncə Azərbaycan səhiyyəsində üçtirəliyə son qoyulmasının vacibliyi ilə bağlı yazdıqları təsdiqini tapır: biz yaxın gələcəkdə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və bu qurumun nəzdində fəaliyyət göstərən TƏBİB-in vahid ad altında birləşməsinin, haqqında danışdığımız üçtirəliyə son qoyulmasının şahidi ola bilərik.

***Sənan Mirzə***

# Ziya Məmmədovun kimsəsiz qalan milyonluq villaları

## Sabiq nazirin müxtəlif rayonlardakı dəbdəbəli malikanələrində kimlər yaşayır?



***Azərbaycanın sabiq nəqliyyat naziri Ziya Məmmədov hazırda doğulduğu kənddə - Ucar rayonunun Qazıqumlaq kəndində yaşayır. Bu barədə bir müddət yayılan məlumatdan aydın olur ki, eks nazir doğma kəndində aqrar təsərrüfat yaradıb və onunla məşğuldur.***

Hər halda bu yazılanlara inanmamaq mümkün deyil, çünki Ziya müəllim özü də Unikal.org saytına bir müddət öncə deyilənləri təsdiqləmişdi, mal-qara saxladığını, taxıl, yonca əkib-becərdiyini demişdi.

Hətta sabiq nazirin Qazıqumlaq kəndində təxminən 8 hektarlıq ərazidə özünə süni göl yaratdığı və təsərrüfatını da məhz həmin göl sayəsində suvardığı deyilir.

Onun doğma kəndindəki malikanəsi isə soyadının baş hərfi olan "M" şəklində inşa olunub. Malikanədə hovuz, uşaq meydançası, əkin sahələri, gümbəzəoşxar kotteclər, ayrıca bir kiçik villa da mövcuddur.

Əldə etdiyimiz məlumatlara görə, Məmmədov Bakıya adətən qış aylarında gəlir. Sabiq "nəqliyyat şefi" həmin vaxt paytaxtın "Milyonerlər məhəlləsi" kimi tanınan ərazisində, Teymur Əliyev küçəsində yerləşən villasında qalır. Deyilənə görə, həmin villada bir neçə il əvvəl güclü yanğın olsa da, sabiq nazir bu mülkünü sonradan tam təmir etdirib. Ziya müəllimin ölkəboyu çox sayda imarətləri var. Onlarda isə ilboyu, demək olar, heç kim yaşamır. Keçmiş nazirin oğlu da xaricdə yaşadığından hazırda həmin imarətlərin faktiki olaraq kimsəsiz qaldığını düşünmək olar. Xatırladaq ki, eks-nazirin oğlu Anar Məmmədov Azərbaycana son illərdə ümumiyyətlə gəlmir. O, Britaniyada məskunlaşıb.

Bəs biz hansı imarətlərdən danışırıq? Gəlin dəbdəbəsi ilə göz qamaşdıran bu mülklərin siyahısı ilə tanış olaq:

1. Bakının Şüvəlan qəsəbəsində, Xəzərin sahilində təxminən 7 hektarlıq ərazidə dəbdəbəli 1 ədəd iri malikanə və 4 ədəd ayrı villalar mövcuddur. Bu villalarda onun övladları, qardaşı və qardaşı uşaqları dincəlirlər. Ərazidə böyük hovuz, süni göl, dəniz suyundan ayrılan kiçik göl, yaxta limanı və futbol meydançası var.

2. İsmayıllı rayonunun ən gözəl kəndlərindən biri Basqalda da sabiq nazirin villaları yerləşir. Burada təxmini 3 hektarlıq ərazidə onun 4 villası var.

3. Qubanın ən gözəl kəndlərindən biri Qəçrəşdə, meşənin düz kənarında oliqarxın daha bir villası mövcuddur. Sahəsi 1 hektardan artıq olan ərazidə ucaldılmış malikanə böyük bir qəsrə bənzəyir.

4. Qubanın Qələdüz kəndində 1 hektarlıq ərazidə iri malikanə və əlavə bir ədəd villa mövcuddur. Villalar Qudyalçay çayının sahilində, möhtəşəm bir mənzərədə yerləşir.

5. Sabiq nazirin daha bir villası Şamaxı rayonunun ən görməli yerlərindən birində inşa olunub, nəhəng hasarlarına baxmayaraq yüksək ərazidə tikildiyindən o, uzaqdan belə aydın görünür, eyni zamanda öz dəbdəbəsi ilə göz qamaşdırır.

İndi sadalanan imarətlərlə bağlı ortada iki sual var. Birincisi, sabiq nazir öz vəzifəsini itirdikdən sonra bu villaların hamısını əlində saxlayıb, ya yox? Çünki Nəqliyyat Nazirliyi ləğv edilib Ziya müəllim də işsiz qaldıqdan sonra onun bir sıra mülklərinin, obyektlərinin əlindən alındığı iddia edilirdi. Məsələn, o, qiyməti milyonlarla dəyərində ölçülən, Bakının Biləcəri qəsəbəsində yerləşən "Delfin" hotel və ona bitişik ərazidə olan məşhur "Ruskaya Banya" hamamını itirmişdi.

Hətta mediada Ziya Məmmədovun nazir olduğu vaxtlarda Göyçayın Potu və Hüngütlü kəndləri arasında yerləşən 20 hektardan artıq səfalı bir yeri zəbt edərək orada tikdirdiyi villadan da məhrum olduğu yazılırdı. Villa tikilərkən sabiq nazirin qohumu, hazırda Ucarın icra başçısı olan Mənsur Məmmədov Göyçaya rəhbərlik edirdi. Bu villanın ərazisində vertolyot meydançasının belə inşa olunduğu iddia edilmişdi.

Bütün bunlardan sonra istər-istəməz sabiq nazirin yuxarıda haqqında bəhs etdiyimiz 5 mülkünün hamısını əlində saxlaya bilib-bilmədiyi maraq doğurur.

İkinci sual isə ondan ibarətdir ki, inşasına on milyonlarla manat xərclənən, saxlanılması da hər il kifayət qədər xərc tələb edən həmin mülklərdə kim yaşayır? Bir halda ki, Ziya müəllim ilin böyük hissəsini doğma kəndində, payız-qış aylarını da əsasən Bakıdakı və Şüvəlandakı villalarında qalır, oğlu isə Azərbaycana ümumiyyətlə gəlmir, onda belə çıxır sözügedən 5 villa (əgər hələ də sabiq nazirin əlində qalırsa) faktiki kimsəsizdir.

Hə, az qala unudacaqdıq, əslində ortada üçüncü sual da var. Axı bir insana, hətta məmur-oliqarx olsa belə, bu qədər mülk niyə lazım olsun ki? Bu nəyin görməmişliyidir?!

Axırı da belə...

***Toğrul Əliyev***

# "Süni maneələr bəzi sahibkarın maraqlarına xidmət edir" - Nazir



***"Cənab Prezident haqsız rəqabətin bizim üçün böyük yara olduğunu xüsusi qeyd etmiş və bununla mübarizə aparılması barədə tapşırıqlarını verib. Sağlam rəqabət ölkənin iqtisadi inkişafını təmin edən əsas amillərdən biridir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında Rəqabət Məcəlləsinin ikinci oxunuşda müzakirəsi zamanı çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

Nazir bildirib ki, ədalətli rəqabətdə təkcə sahibkarlar, dövlət deyil, qiymətlərin aşağı düşməsindən, məhsul çeşidlərinin genişlənməsindən ən çox istehlakçılar, sadə vətəndaşlar qazanır.

"Rəqabətin qarşısında süni maneələrin olması bir qrup sahibkarın maraqlarına xidmət edir".

***Anar Kəlbiyev***

# "Rəqabət Məcəlləsində dəyişikliklərin olması gözlənilir" - Komitə sədri

***"Rəqabət Məcəlləsi ilə bağlı komitəyə 60 təklif verilib. Təkliflərin bəziləri ümumi razılaşdırma mərhələsindədir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında Rəqabət Məcəlləsinin ikinci oxunuşda müzakirəsi zamanı komitə sədri Tahir Mirkişili deyib.

"Müəyyən dəyişikliklərin olması da gözlənilir", - deyə komitə sədri bildirib.

***Anar Kəlbiyev***

# Emin Əmrullayev 150 minə yaxın müəllimə SMS göndərdi



***Elm və təhsil naziri Emin Əmrullayev 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə bütün müəllimləri təbrik edib.***

"Unikal" xəbər verir ki, nazir 150 minə yaxın müəllimin əlaqə nömrəsinə təbrik mesajı göndərib.

Təbrik mesajında müəllimlərə təşəkkür olunub: "Dəyərli Azərbaycan müəllimi! Övladlarımızın uğurlarında, xalqımızın zəfərlərində sənin əməyin əvəzsizdir. Beynəlxalq Müəllimlər Günü münasibətilə ürəkdən təbrik edir, bu şərəfli işdə yeni nailiyyətlər arzulayıram.

Hörmətlə, Emin Əmrullayev".

# Azərbaycan Ordusunda çağırışçıların qəbulu davam edir

***Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası ilə bağlı Azərbaycan Ordusunun təlim hərbi hissələrində gənc əsgərlərin qəbulu davam edir.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, xidmətə yeni gələn çağırışçılar hərbi hissələrin qəbul məntəqələrində qeydiyyatdan keçir, tibb məntəqələrində hərbi həkim komissiyası tərəfindən təkrar müayinə olunur, mövsümə uyğun hərbi geyimlə və digər təminat növləri ilə tam təmin edilirlər.

Bütün hərbi hissələrdə şəxsi heyətin qidalanmasına xüsusi diqqət yetirilir, əsgər yeməkxanalarında sanitar-gigiyenik qaydalara riayət olunmaqla şəxsi heyət üçün normaya uyğun olaraq gündə üç dəfə yüksək kalorili yeməklər hazırlanır. Menyuda milli mətbəximiz üstünlük təşkil edir.

Çağırışçılara hərbi xidmətin xüsusiyyətləri, xidmət edəcəkləri hərbi hissə, günün nizam qaydaları barədə ətraflı məlumat verilir, təhlükəsizlik qaydaları çatdırılır, maarifləndirici və fərdi söhbətlər aparılmaqla onların psixoloji xüsusiyyətləri öyrənilir.

Gənc əsgərlərin hazırlığı proqramına uyğun olaraq keçirilən fərdi hazırlıq məşğələlərində onlara nizamnamə və hərbi qanunvericiliyin müvafiq tələbləri, hərbi intizam qaydaları, eləcə də sıra, fiziki və atəş hazırlığı üzrə çalışmaların elementləri öyrədilir.

# "Praktiki nəticəsi olmayacaqsa, qanun işləməyəcək" - Xidmət rəisi



***”Gələcəkdə Azərbaycanda rəqabət reyestrinin olmasını dəstəkləyirik, amma buna müəyyən zaman lazımdır”.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli deyib.

O bildirib ki, hökmran mövqe reyestrinin olması hər iştirakçı üçün maraqlı olardı: ”Amma rəqabət orqanı çox geniş data üzərində işləməlidir. Biz hansısa yüksək hədəfləri qoya bilərik, amma onun praktiki nəticəsi olmayacaqsa, qanun işləməyəcək. Reyestrin olması yaxşı olardı. Bu iştirakçıların mövqeyini yüngülləşdirərdi. Amma bu gün onun icra mexanizmi çətindir. Çünki qısa bir müddət ərzində çox böyük datanın yığılması işi aparılmaldır. Bu uzun müddət tələb edən məsələdir. Həmçinin, bazarda sahibkarların fəaliyyəti dinamikdir və bazar payları dəyişir. Ona görə də, çevikliyin təmin edilməsi baxımından reyestrin yaradılması rəqabət orqanının üzərinə qeyri-adekvat məsuliyyət qoya bilər”.

***Anar Kəlbiyev***

# Rüşvətə görə tutulan hərbi komissar hakim qarşısına çıxarılır



***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz Rayon Şöbəsinin rüşvət almaqda ittiham olunan sabiq rəisi Rahim Ağayevin cinayət işi üzrə məhkəmə istintaqı başa çatıb.***

”Qafqazinfo”nun məlumatına görə, iş üzrə toplanmış materiallar baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

Eks-hərbi komissarın işi hakim Rafiq Abbasovun sədrliyi ilə araşdırılacaq.

Qeyd edək ki, R.Ağayev Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həbs edilib. Onun vəzifədə işləyərkən çağırışçının sağlamlıq vəziyyəti ilə əlaqədar həqiqi hərbi xidmətə yararsız hesab edilməsinə köməklik göstərilməsi müqabilində vətəndaşdan tələb etdiyi 8 min manat məbləğində pul vəsaitinin 5 min manatını rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib.

Ona qarşı Cinayət Məcəlləsinin 311-ci ( rüşvət alma) maddəsi ilə ittiham irəli sürülüb.

# Kəmaləddin Heydərov türkiyəli və yerli mütəxəssisləri mükafatlandırdı



***Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov tərəfindən Vətən müharibəsi ilə bağlı psixoloji problemlər yaşayan müharibə iştirakçılarının, o cümlədən qazilərin, doğmalarını itirmiş şəhid ailəsi üzvlərinin, erməni terrorundan fiziki və mənəvi zərər görmüş insanların psixoloji reabilitasiyasının daha səmərəli təşkili məqsədilə Fövqəladə Hallar Nazirliyinin dəvəti ilə Türkiyədən gəlmiş psixoloqlar və FHN-in bir qrup psixoloqu yüksək səviyyəli xidmətlərinə görə medal və fəxri fərmanlarla təltif ediliblər.***

Bu barədə Fövqəladə Hallar Nazirliyindən (FHN) bildirilib.

Məlumata görə, keçirilən təltifetmə mərasimində iştirak edən nazir Kəmaləddin Heydərov göstərdikləri xidmətlərə görə türkiyəli və yerli psixoloqlara təşəkkür edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, Vətən müharibəsi ilə bağlı psixoloji problemlər yaşayan qazilərin, doğmalarını itirmiş şəhid ailəsi üzvlərinin, erməni terrorundan fiziki və mənəvi zərər görmüş insanların psixoloji reabilitasiyasının daha səmərəli təşkili məqsədilə Fövqəladə Hallar Nazirliyinin dəvəti ilə qardaş ölkədən gəlmiş peşəkar psixoterapevtlər və FHN-in psixoloqlarının birgə iştirakı ilə 2021-ci ilin yanvar ayından ödənişsiz olaraq psixoloji yardım işi həyata keçirilib. Bu müddət ərzində respublikanın müxtəlif bölgələrində 4000 nəfərə yaxın vətəndaşa, o cümlədən 430-a qədər uşaq və yeniyetməyə ümumilikdə 9500 seans psixoloji yardım göstərilib.

# Azərbaycanda məmur davaları...

## Bəzən vəzifəli şəxslər də bir-biri ilə əlbəyaxa davaya çıxırlar - ARAŞDIRMA!

***Yola salmaq üzrə olduğumuz həftənin maraqlı xəbərlərindən biri Göygöldən gəldi - məlum oldu ki, Göygöl rayonunda vəzifəli şəxslər arasında münaqişə olub.***

Hadisə Göygöl Dövlət Aqrar İnkişaf Mərkəzinin həyətində baş verib. Mərkəzin direktoru, 41 yaşlı Elməddin Əhmədovla Göygöl Rayon Baytarlıq İdarəsinin rəisi, 62 yaşlı Oqtay Həmidov arasında mübahisədən daha sonra fiziki münaqişəyə keçib. E.Əhmədov O.Həmidovun onun əl nahiyəsinə xəsarət yetirdiyini bildirərək Göygöl Rayon Polis Şöbəsinə şikayət edib. Hazırda hadisə ilə bağlı araşdırma aparılır.

DİN-in Mətbuat Xidmətinin Gəncə regional qrupunun baş inspektoru polis kapitanı Eşqin Qasımov məlumatı təsdiqləyib. O bildirib ki, hadisə ilə bağlı Göygöl Rayon Polis Şöbəsinə hər iki şəxsin müraciəti daxil olub: ”İlkin araşdırmalar zamanı hər iki şəxsin mübahisə etməsi məlum olub. Şəxslər üzərində hər hansı bir bədən xəsarətləri müəyyən edilməyib. Faktla bağlı araşdırmalar davam etdirilir” (Qafqazinfo).



Qeyd edək ki, Azərbaycanda vəzifəli şəxslər arasında bu cür münaqişələr ilk dəfə baş vermir. ”Unikal” bununla bağlı araşdırma aparıb. Araşdırma nəticəsində məlum olub ki,

- İki il öncə Gəncə Hava Limanında vəzifəli şəxslər arasında dava olub. ”Report”un xəbərinə görə, hava limanının Aviasiya Təhlükəsizliyi xidmətinin rəisi Akif Alıyev və Yerüstü xidmət sahəsinin növbətçi rəisi Elcan Babayev əlbəyaxa olublar. Dava zamanı onlar bir-birinə xəsarət yetiriblər. Hadisə hər iki şəxsin xidmətdə olduğu zaman baş verib. A.Alıyev və E.Babayev arasında əvvəllər də mübahisə olduğu bildirilir. İnsidentə polis müdaxilə edib.

- Bir neçə il öncə isə Bakıda Kənd Təsərrüfatı Nazirliyinin Lizinq sektorunda müdirlə işçilər arasında insident baş verib. Nazirliyin Texniki siyasət şöbəsinin müdir müavini, Lizinq sektorunun müdiri Ağayev Mübariz Alı oğlu iki nəfərdən Bəxtiyar və Mədinə adlı şəxslərdən Səbail rayon Polis İdarəsinə şikayət edib. Belə ki, adları çəkilən şəxslər Mübariz Ağayevin otağına girərək səsküy salıblar, nəticədə sektor müdiri polisə müraciət etmək məcburiyyətində qalıb. M.Ağayev faktı təsdiq edib, otağına hücum edən şəxslərin ana və oğul, ən əsası isə şöbə əməkdaşları olduqlarını deyib. Sitat: ”Gəlib məndən pul tələb ediblər və bildiriblər ki, xəstəmiz var, kömək elə. Mən də onlara pul verməkdən imtina etdim. Dedim məndə pul var? Onlar da üstümə hücum çəkdilər. Mən də polisə şikayət etmək məcburiyyətində qaldım”.

Qeyd edək ki, Mübariz Ağayev vaxtilə Quba və Göyçay rayonlarının icra başçısı vəzifəsində də çalışıb.

- 2019-cu ildə Lerik Rayon Maliyyə İdarəsinin rəisi Elman Abbasovun idarənin keçmiş baş mühasibi Hafiz İmanovla əlbəyaxa davası barədə məlumat yayılıb. Xəbərdə onların əvvəlcə bir-birinə qarşı kobudluq etdiyi, təhqirlər yağdırdığı, sonradan isə münaqişənin əlbəyaxa davaya çevrildiyi bildirilib. İddia edilib ki, mübahisəyə səbəb idarə və təşkilatlardan yığılmış aylıq faizlərin düzgün bölünməməsi olub. Yayılan məlumata rəsmi reaksiya verilməyib.

- Vaxtilə Biləsuvarda da yüksək post sahibləri arasında münaqişə barədə xəbərlər KİV-ə sızmışdı. Belə ki, rayonun mərkəzində yerləşən Heydər Əliyev Parkında Biləsuvarın hazırda həbsdə olan ovaxtkı icra başçısı Mahir Quliyevlə vəzifəli şəxslərdən birinin əlbəyaxa olduqları, hətta davanın ətrafdakılar tərəfindən videoya çəkildiyi və sosial şəbəkələrdə yayıla biləcəyi iddia edilirdi. Lakin həmin dava da bir müddət sonra unuduldu...

- 2018-ci ildə ölkə mediasında yayılan bir məlumat geniş əks-səda doğurmuşdu. Həmin xəbərdə iddia edilirdi ki, Ağdaş rayonunda şadlıq sarayларının birində şərab üstündə bıçaqlanma hadisəsi baş verib. Hadisənin rayon Kənd Təsərrüfatı İdarəsinin ovaxtkı rəisi Elsəvər Baxışovun oğlunun toy mərasimində qeydə alındığı, həmin idarənin rəis müavini Aydın Ağayev ilə digər qonaqlar arasında şərab üstündə mübahisə düşdüyü, mübahisənin əlbəyaxa davaya çevrildiyi, münaqişəyə rayonda vəzifəli şəxslərdən hesab olunan Rahim adlı şəxsin də qoşulduğu, insident iştirakçılarının masa üzərində olan bıçaqları götürərək bir-birinə xəsarət yetirdikləri iddia edilirdi. Yaralıların dərhal Ağdaş Rayon Mərkəzi Xəstəxanasına yerləşdirildiyi bildirilən xəbərdə faktla bağlı araşdırmalar aparıldığı vurğulanırdı. Həmin vaxt bu iddia rəsmən təsdiqlənməsə belə, təkzib də edilməmişdi.

- Həmçinin bir neçə il öncə Qobustan rayonunda qarşılıqlı borclara görə iki idarə rəisi arasında əlbəyaxa dava düşdüyü, hadisə yerinə rayon polis şöbəsinin əməkdaşlarının gəldiyi, məsələyə müdaxilə edən icra başçısı Adil Məmmədovun isə hər iki idarə rəisini xeyli danladığı iddia olunmuşdu.

Bir sözlə, məmurlarımız da cəmiyyətin bir parçasıdırlar və son illərdə vətəndaşlar arasında adiləşən aqressivlik, davadalaşa meyllilik fonunda bəzi vəzifəli şəxslərin də bir-birləri ilə yumruqlaşmasında təəccüblü heç nə yoxdur. Kimlərsə düşünə bilər ki, məmurlar nümunəvi davranışları ilə cəmiyyətə örnək olmalıdırlar. Lakin bir çox post sahiblərinin rüşvət, korrupsiya kimi qanunsuz əməllərə görə elə kabinetində, iş başındaca qandallandığı bir vaxtda bu gözlənti nə qədər yerinə düşür?!

***Toğrul Əliyev***

## 5.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Regionların sosial-iqtisadi inkişaf proqramı necə icra edilir?

Dövlət Proqramında nəzərdə tutulmuş layihələrin maliyyələşdirilməsi hesabına 3026 yeni iş yerinin açılması imkanı yaranıb.

Regionların sosial-iqtisadi inkişafı, yerlərdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi daim prezident İlham Əliyevin diqqətindədir. Dövlət başçısı regionlarda yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi məqsədilə çoxsaylı tapşırıqlar verir, sənədlər imzalayır. O sənədlərdən biri də, “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”dır. Bəs görəsən bu il başa çatması nəzərdə tutulan Dövlət Proqramının icrası nə yerdədir? Sözügedən sənəd regionların sosial-iqtisadi inkişafına hansı təkanı verib?

İqtisadiyyat Nazirliyindən “Unikal” qəzetinin sorğusuna cavab olaraq bildirilib ki, ötən il Dövlət proqramı çərçivəsində regionlarda sənayeləşmə siyasətinə uyğun olaraq sənaye parkları və məhəllələrinin fəaliyyətinin təşkili və genişləndirilməsi istiqamətində işlər davam etdirilib. Bu dövr ərzində müxtəlif çeşidli sintetik xalça istehsalı, prefabrik dəmir-beton məmulatları, dam örtükləri, havalandırma, yanğınsöndürmə avadanlıqlarının və metal məmulatların istehsalı, metal profil və anbar stellajlarının istehsalı və s. layihələr üzrə 12 rezident Ağdam Sənaye Parkından qeydiyyatdan keçərək nəticədə 44 iş yeri yaradılıb. Sumqayıt Kimya Sənaye Parkında bu ilin əvvəlinə qədər 32 rezident qeydiyyatdan keçib. Rezidentlər tərəfindən ötən il 2,7 milyard manat həcmində məhsul istehsalı həyata keçirilib ki, bunun da 1 milyard manatlıq hissəsi ixrac olunub. Pirallahı Sənaye Parkında “Dərman vasitələrinin istehsalı” layihəsi üzrə “R-Pharm” MMC və “Müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı” layihəsi üzrə “Diamed Co” MMC tərəfindən istehsal fəaliyyəti, “Uşaq bezlərinin istehsalı” və “Zəfərandan mürəbbə və limonad istehsalı” layihələri üzrə müəssisələrin təşkili işləri davam etdirilib. Həmçinin, hesabat dövründə “Diabet xəstələri üçün özünü müayinə cihazlarının və onların striplərinin istehsalı” layihəsi üzrə “MEDTEST” MMC rezident kimi qeydiyyatdan keçib. Bu il Balaxanı Sənaye Parkının 25 rezidentindən 17-si tərəfindən istehsal fəaliyyəti, digər rezidentlər tərəfindən isə istehsal sahələrinin tikintisi davam etdirilib. Sənaye 2 parkının iştirakçıları tərəfindən istehsal sahələrinin yaradılması nəticəsində ümumilikdə 1100-dən çox iş yeri yaradılıb. Sənaye Məhəllələrində 38 rezident qeydiyyatdan keçib ki, bunlardan 25 rezident artıq istehsal fəaliyyətinə başlayıb. Həmçinin rezidentlər tərəfindən bu il 85,3 milyon manat investisiya yatırılıb.



400 nəfərdən çox iş yerləri yaradılıb, istehsal olunan məhsulların satışı həyata keçirilib. Ötən il Hacıqabul Sənaye Məhəlləsində 3 rezident qeydiyyatdan keçib. Hacıqabul Sənaye Məhəlləsində 13 rezident müəssisədən 7-si fəaliyyətə başlayıb, nəticədə 100 yeni iş yeri yaradılaraq istehsal olunmuş məhsulların satışı həyata keçirilib. Həmçinin 2022-ci ildə Masallı və Neftçala sənaye məhəlləsində rezidentlər tərəfindən məhsul istehsalı və satışı davam etdirilib. Sabirabad Sənaye Məhəlləsinə rezident kimi qeydiyyatdan keçmək üçün daxil olan müraciətlərin qiymətləndirilməsi nəticəsində ümumi investisiya dəyəri 12,3 milyon manat, iş yerlərinin sayı 170-dən çox olan 8 investisiya layihəsi barədə qərar qəbul edilib.

Nazirlikdən bildirilib ki, ötən il 49 sahibkarlıq subyektinə 50 investisiya təşviqi sənədi təqdim olunub. İnvestisiya təşviqi sənədi təqdim edilən layihələrin reallaşması nəticəsində yerli istehsala 664,6 milyon manat investisiyanın yatırılması və 2323 yeni iş yerinin açılması nəzərdə tutulur.

Eləcə də, sahibkarlara güzəştli kreditlərlə maliyyə dəstəyinin göstərilməsi davam etdirilib. Ötən il ərzində müvəkkil kredit təşkilatları vasitəsilə 2726 investisiya layihəsinin maliyyələşdirilməsinə 145,9 milyon manat, o cümlədən respublikanın regionları üzrə 2644 investisiya layihəsinin maliyyələşdirilməsinə 121,2 milyon manat güzəştli kredit verilib. Maliyyələşdirilmiş layihələr hesabına 3026 yeni iş yerinin açılması imkanı yaranıb.

Aqroparkların və müasir iri fermer təsərrüfatlarının yaradılması istiqamətində işlər də davam etdirilib. Dövlət başçısının müvafiq tapşırıqlarına uyğun olaraq, hazırda respublikanın 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark üzrə işlər davam etdirilir. Aqroparkların 34-i bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq, 2-si isə emal sənayesi üzrə ixtisaslaşıb.

Torpaqların suvarma təminatının yaxşılaşdırılması, kənd təsərrüfatı məhsulları istehsalının artırılması və yeni əkin sahələrinin dövriyyəyə daxil edilməsi məqsədilə ötən il ərzində də meliorasiya və irriqasiya layihələrinin həyata keçirilməsi davam etdirilib. Belə ki, Proqram çərçivəsində kənd təsərrüfatı torpaqlarında 156518,5 paqonmetr kollektor-drenaj şəbəkəsinin, 71664 paqonmetr suvarma kanallarının tikintisi, bərpası və yenidən qurulması işləri həyata keçirilib, regionlarda 1100 ha torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılaraq, 196 subartezian quyusu qazılıb. Dövlət Proqramı çərçivəsində əhalinin təhlükəsizliyinin qorunması tədbirlərinə uyğun olaraq bölgələrdə yaşayış məntəqələrinin, əkin sahələrinin, hidrotexniki qurğuların və digər infrastruktur obyektlərinin sel və daşqın sularının dağıdıcı təsirlərindən mühafizəsi istiqamətində işlər davam etdirilib. Çaylarda 6251,3 pm sel və daşqınlara qarşı mühafizə bəndləri tikilib, məcratəmizləmə və bənd bərkitmə işləri görülüb.

Nazirlikdən bildirilib ki, “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin icrası bu il də davam etdirilir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## MEDİA tərəfindən keçirilən layihənin iştirakçılarına sertifikatlar verildi

***3-4 oktyabr 2023-cü il tarixlərində Medianın İnkişafı Agentliyi tərəfindən həyata keçirilən “Rəqəmsal xəbərlərin oxunaqlılığının artırılması üçün müasir strategiyalar” layihəsinin ikinci günündə Türkiyənin tanınmış mütəxəssislərinin iştirakı ilə master-klass və vörkşoplar təşkil olunub.***

“Yaxşı məzmun nədir?; Rəqəmsal mediada fərq yaradanlar” mövzusunda master-klass keçən “Albayrak” Media Qrupunun tərkibindəki ”GZT” rəqəmsal platformasının baş redaktoru Doğukan Gezer və Suat Özdemir sosial mediada güclü brendin formalaşdırılması, daha böyük kütləyə çatmaq üçün paylaşıla bilən məzmunun yaradılması, rəqəmsal xəbərlər üçün ödənişli reklam, influserlər ilə əməkdaşlıq, e-mail marketinqi və bülletenlərin gücündən istifadə barədə danışıblar. Sonra təlimçilər tərəfindən “Xəbər hazırlama prosesinin planlaşdırılması; Xəbərin yayımından sonra göstəricilərin ölçülməsi” mövzusunda təşkil olunan vörkşopda oxucuların davranış və seçimlərinin təhlili, məzmun təqvimi və yayım strategiyasının hazırlanması, başlıqlar və məzmun formatları üçün A/B testinin aparılması, axtarış mühərriklərində ön səhifələrdə görünmək üçün SEO-dan istifadə kimi məsələlər iştirakçıların diqqətinə çatdırılıb.

Sonra Kerim Asker və Tunç Çevik “Rəqəmsal mediada dizayn” mövzusunda keçirdikləri vörkşop zamanı videonun istehsal mərhələləri (çəkiliş, redaktə, marketinq), veb-sayt dizaynının və istifadəçi təcrübəsinin optimallaşdırılması, fərdiləşdirmə və individuallaşdırma təcrübələrinin həyata keçirilməsi barədə geniş məlumat veriblər.

Layihənin yekununda isə iştirakçılara sertifikatlar təqdim olunub.



## Qəhrəman ömrü yaşayan Firdovsi

***Firdovsi Tahirov. Bu ad özündə şanlı hər tariximizin ayrılmaz bir hissəsi olmaqla, bütöv bir xalqın qəhrəmanlıq simvolunu yaşadır. Vətən sevdalısı ikinci Qarabağ döyüşlərin qalib şəhiddir. Doğulub boya-başa çatdığı Lerik rayonunun Dico kəndi fəxr edir, öyünür ki, Azərbaycana Firdovsi kimi nəsillərə nümunə olacaq qəhrəman oğul bəxş edib.***

Firdovsi Balaxan oğlunun şəhadətə ucaldığı gündən 3 il ötür. Bu münasibətlə doğma kəndində onun anım mərasimi keçirildi.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasovun, hüquq-mühafizə orqanları, idarə, müəssisə, təşkilat rəhbərlərinin, ictimaiyyət nümayəndələrinin və şəhidin ailə üzvlərinin qatıldığı mərasimdə şəhidin məzarını ziyarət edib ,önünə gül-çiçək dəstələri düzərək, əziz xatirəsi ehtiramla yad edildi. Daha sonra icra başçısı şəhidin ailəsinin yaşadığı evə gələrək onların qayğı və problemləri ilə maraqlandı.

Şərəfli ölümü ilə özünə ürəklərdə abidə ucaldan Firdovsi Tahirov 18 fevral 1997-ci ildə Lerik rayonunun Dico kəndində anadan olub. 2019-cu ildə Lerik Hərbi Komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı ali təhsilini yarımçıq qoyub Murovdağ istiqamətində gedən döyüşlərə qatılır. Bu ağır döyüşlərdə erməni dığalarına qan qusdurur və qəhrəmancasına şəhidlik şəhadətinə çatır. Beləcə, bir igid də 23 yaşında ürəkdən bağlandığı Vətəni üçün canından keçir. Şərəfli ölümü doğma yurda başucalığı gətirən Vətən sevdalısı böyüyüb boya-başa çatdığı Lerik rayonunun Dico kəndində canından artıq sevdiyi torpağa tapşırılır .

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Firdovsi Tahirov ölümündən sonra “Azərbaycan Bayrağı” ordeni və ”Vətən uğrunda”, “Cəsur döyüşçü”, “ Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

*Zəfər Orucoğlu, AJB üzvü*

## Bu şəhərlərdə ağaclar qanunsuz kəsilib

***Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən keçirilən növbəti nəzarət tədbirləri zamanı Bakı şəhəri Binəqədi rayonu, Abşeron rayonu Xırdalan şəhəri, Ağdaş rayonu və Mingəçevir şəhəri ərazisində ağacların qanunsuz kəsildiyi müəyyən edilib.***

Xidmət rəsmisi Bəhruz Məhəmmədov ”Unikal”a bildirib ki, araşdırma zamanı ağacların Binəqədi rayonu, S.Bəhlulzadə küçəsi 44 ünvanında vətəndaş Elmira Əliyeva, Xırdalan şəhəri, Mehdi Hüseynzadə küçəsində “SAS İnşaat” MMC, Ağdaş rayonu Tofiqi kəndi ərazisində vətəndaş Rza Məmmədov, Mingəçevir şəhəri Sağ sahil qəsəbəsində isə vətəndaş Sultan Məmişova tərəfindən kəsildiyi məlum olub.

“Faktlarla bağlı akt tərtib edilib, hər bir fakt üzrə yaşıllıqlara dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından məsələyə hüquqi qiymət verilməsi üçün toplanmış sənədlər Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib”.

# Dövlət qulluğuna qəbul imtahanı keçiriləcək

***Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il oktyabrın 8-də dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğuna qəbul imtahanı keçiriləcək.***

DİM-dən ”Unikal”a bildirilib ki, imtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanır və 3 saat davam edir. Saat 10:45-dən sonra gələn namizədlər imtahana buraxılmırlar.

İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır. İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.



İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş namizədlər DİM-in internet saytına daxil olaraq “İmtahana buraxılış vərəqəsi”ni çap etməlidirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara “Namizədin yaddaş kitabçası” da təqdim olunur. Burada namizədlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

Namizədlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- şəxsiyyəti təsdiq edən sənədin əsli;
- “İmtahana buraxılış vərəqəsi”.

İmtahan kağız daşıyıcılar vasitəsilə Bakı və Naxçıvan şəhərlərində 8 binada təşkil olunacaq. İmtahanda iştirak etmək üçün BA qrupu üzrə 395, BB qrupu üzrə 1684 olmaqla, ümumilikdə 2079 namizəd qeydiyyatdan keçib. İmtahanının keçirilməsi üçün 8 ümumi imtahan rəhbəri, 24 imtahan rəhbəri, 188 nəzarətçi?müəllim, 30 buraxılış rejimi əməkdaşı ayrılıb.

# "Reklamlarda Azərbaycan dilinin normaları çox ciddi formada pozulur" - Ekspert

***Dil yalnız ünsiyyət,əlaqə vasitəsi deyil, həm də dünyanı, ətraf aləmi dərketmə alətidir. Ötən əsrin 90-cı illərindən dilimizin vəziyyətini həm də reklamlarda görməyə, duymağa başladıq. Həmin dövrün informasiya mənbələrinin kasadlığında reklam kampaniyaları bir növ “ayaq açıb” həyatımıza daxil olmağa başladı. İlk günlər bu “informasiya məlumatı” insanlara xoş təsir bağışlayır, küçələrə vurulmuş reklam lövhələri onların diqqətini çəkirdisə, gün keçdikcə reklamın kommersiya və biznes yaratma məqsədlərinə xidmət etməsindən doğan reallıq dilimizə öz dərin izlərini buraxmağa başladı. Reklamlar bizi “məlumatlandırmaqla” sanki yaşadığımız şəhərin dilinə “çevrilməyə” başladı.***



”Unikal” dilçi ekspert Gülər Mübarizdən reklamlarda Azərbaycan dilinin işlədilməsi qaydalarının doğru işlənib-işlədilmədiyi ilə bağlı, onun fikirlərini öyrənib. Ekspert bildirib ki, reklamlar artıq hər yerdədir və televiziya vasitəsilə evimizin içinə daxil olur, radioda, qəzetlərdə, küçələrdə, afişalarda, plakatlarda, bukletlərdə, etiketlərdə, internetdə, virtual aləmdə və s. qarşımıza çıxır. Palitrası, rəngarəngliyi, cəlbediciliyi və təbii ki, səhvləri ilə birlikdə: «Müasir insan hər gün müxtəlif hadisələr mühitindədir, həmin mühit reklamlarla əhatə olunub.

Reklam verənin vəzifəsi alıcıların diqqətini bir məhsula və ya xidmətə çəkməkdir və çox zaman bunu müxtəlif xətaların bahasına da olsa, edirlər. Bəzən antireklamın da diqqət çəkdiyini düşünüb sırf bu yöndə hərəkət etməklə, bunun zərərlərini gözardı etmək yolverilməzdir. Bunların kütləvi dil qüsurlarına yol açmayacağına və cəmiyyətin danışıq biçiminə təsir etməyəcəyinə dair bir dəlil varmı?

Bu mövzuda əsas məqsəd günümüzdə yaradılan reklamlarda,reklam kimi istifadə olunan bütün yazılarda dil qüsurlarını aşkar etmək, diqqəti bu yanlışlar üzərinə çəkmək və dilin qorunmasında hər hansı bir faydası olmaqdır.

Apardığımız müşahidələr göstərir ki, müstəqillik illərində Azərbaycan dilinin milli dil kimi saflığının qorunması və inkişafı üçün kifayət qədər qərarlar və qanunlar qəbul edilsə də, bu qərarların icrasında ciddi nöqsanlar, boşluqlar qalmaqdadır. AMEA Nəsimi adına Dilçilik İnstitutunun apardığı monitorinqlər və müşahidələr də bir daha sübut edir ki, reklamlarımızın dilində ciddi problemlər müşahidə edilir. Dilçilər, adətən, reklamların dilini funksional-üslubi cəhətdən təhlil edirlər”. Gülər Mübariz vurğulayıb ki, küçə və prospektlərdə hər an reklam mətnlərindəki norma pozuntuları ilə qarşılaşmaq olur. Reklamlarda daha çox orfoqrafik, leksik və qrammatik normalar pozulur: “Deyə bilərəm ki, Azərbaycanın xüsusilə efir məkanında nümayiş etdirilən reklamlar xaricdən ölkəmizə idxal edilən məhsulları əhatə edir. Onların dilimizə tərcüməsi isə çox zaman qaydasında olmur”. Ekspertin sözlərinə görə, reklam mətnlərində açar sözlər və ifadələr bir çox hallarda düzgün seçilmir. Ona görə də insanlar reklamda əks etdirilən fikri, məqsədi başa düşə bilmir:

“Məsələn: ”Qutab evi”, Oboy evi” və s. bu kimi məntiqsiz adlarla rastlaşırıq. Ümumiyyətlə, son illər ”ev” sözü yeni birləşmələrin yaranmasında fəal iştirak edir: şərab evi; təkər evi, kabab evi və s. Olmaz ki, “Oboy evi” yox, “Divar kağızı çeşidləri” olsun? Bu fikirlə tamamilə razıyıq ki, “ev” insana, “hin” toyuğa, “dam” itə, “tövlə” malqaraya aid anlayışlardır. Bu sözlərin daşıdığı mənanı qarışdıranlar nəinki ədəbi dili, hətta məişət leksikasını belə bilmirlər. Belə misalların sayı onlarladır”.



# Regionlarda suvarma sistemlərindəki problemlər həllini tapır

***Ağdam Melioservis İdarəsi suvarma kanallarını lildən təmizləyir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Ağdam Melioservis İdarəsi magistral, təsərrüfatlararası və təsərrüfatdaxili suvarma və kollektor drenaj sistemlərinin lildən təmizlənməsi, kanalların beton üzlüyə alınması, hidrotexniki qurğuların təmiri, bərpası və yenidən qurulması işlərini həyata keçirir.***



Bu işlər idarənin texnikaları və mütəxəssizləri tərəfindən birneçə istiqamətdə davam edir. İdarə tərəfindən bu il Tərtər rayonu ərazisindən keçən Qapanlı suvarma kanalının bir hissəsi beton üzlüyə alınıb. Ağdam Melioservis İdarəsi tərəfindən su itkisinin qarşısının alınması, suvarma suyunun maneəsiz olaraq əkin sahələrinə çatdırılması istiqamətində də böyük işlər görülür. Fermerlərin su təminatının yaxşılaşdırılması üçün hazırda Tərtər rayonunun İsmayılbəyli kəndindən keçən torpaq məcralı kanal lildən təmizlənir.



Qeyd edək ki, Ağdam Melioservis İdarəsi Ağdam rayonunda yerləşir. İdarə ölkənin bir sıra rayonlarında meliorativ tədbirlər həyata keçirir.

Mil - Qarabağ və Aşağı Şirvan ərazilərində kollektorlar təmizlənir. Dilqəm Şərifov bildirib ki, Mil-Qarabağ və Aşağı Şirvan kollektorlarında işlər plana uyğun olaraq davam edir. Görülən işlərin əsas məqsədi kollektor sistemlərini lildən və duzdan təmizləmək, şoranlaşmanın qarşısını almaqla torpaqların münbitliyini artırmaqdır. Bu işləri Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı İdarəsi həyata keçirir. Kollektorlar üzərində olan su ötürücü borular isə dəmir-beton borularla əvəzlənir. Hazırda bu işlər Aşağı Şirvan kollektorunda aparılır. Əraziyə cəlb olunan texnikalar və idarənin mütəxəssizləri tərəfindən borular dəyişdirilir.

İdarə ötən il olduğu kimi bu il də meliorativ tədbirlərini bir-neçə istiqamətdə aparır. Hazırda balansda olan kollektor-drenaj sistemləri lildən təmizlənir, nasosstansiyalarda təmir-bərpa işləri həyata keçirilir. Aparılan kompleks meliorativ tədbirlər nəticəsində uzun illər əkin üçün istifadəyə yararsız torpaqlar yenidən əkinə qaytarılır. İdarə tərəfindən cari ilin 9 ayı ərzində Kürdəmir rayonu ərazisində kollektor və drenaj şəbəkələrinin lildən təmizlənməsi 580000 m?, 190 km məsafə təşkil edib. Bundan başqa 40 ədəd hidrotexniki qurğular və bir ədəd nasos stansiyası cari təmir edilib.

Qeyd edək ki, Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı İdarəsi Respublikanın 6 rayonuna xidmət edir. İdarənin balansında olan kollektor-drenaj şəbəkəsi vasitəsilə həmin rayonların ərazisində yerləşən meliorasiya olunmuş sahələrə xidmət olunur.

Şabranda torpaq məcralı Ağalıq kanalı beton üzlüyə alınır. Dilqəm Şərifov bildirib ki, Şabran rayonunda yaz-yay suvarma mövsümü uğurla başa çatıb. Rayon Suvarma Sistemləri İdarəsi əməkdaşlarının əvvəlcədən gördüyü meliorativ tədbirlər nəticəsində suvarma mövsümündə təsərrüfat sahibləri vaxtında suvarma suyu ilə təmin edilib. Hazırda Şabranda növbəti suvarma mövsümünə hazırlıq işlərinə start verilib. Bu məqsədlə torpaq məcralı Ağalıq kanalı beton üzlüyə alınır. Sözügedən kanal vasitəsi ilə 300 hektardan artıq sahəsinin suvarılması daha da yaxşılaşacaq.

Şabran Suvarma Sistemləri İdarəsi əməkdaşları tərəfindən eyni zamanda növbəti mövsümdə sahələrin vaxtında suvarılmasını düzgün təşkil etmək məqsədilə torpaq kanallar lil və kol-kosdan təmizlənir. Görülən işlər nəticəsində kanalların ötürücülük qabiliyyəti artırılır ki, bu da su itkisinin qarşısını alır. Kanalların təmizlənməsi işlərinə 15 ədəd ağır texnika cəlb olunub.

Hazırda Şabranda 27 min hektar əkinəyararlı torpağı suvarmaq üçün 764 kilometr uzunluğunda təsərrüfatdaxili və təsərrüfatlararası suvarma kanalından istifadə edilir. Son illər rayonda 100 km-dən artıq torpaq kanal beton kanalla əvəz edilib. Qeyd edək ki, 2019-cu ildə aparılan melorativ tədbirlərdən sonra Şabranda 9 min hektar sahə əkin dövriyəsinə cəlb olunub. Əkinə yeni cəlb edilən sahələrin suvarılması məqsədi ilə ərazidə yeni qapalı sistem yaradılıb.



# Şəhid mayor Amid Heydərovun Vətən məhəbbəti...

***İkinci Qarabağ müharibəsində xalqımızın qəhrəman oğlanları Vətən torpaqlarının azadlığı uğrunda canından keçməklə yeni bir tarix yazdılar. Ölümün üzünə dik baxan mərd oğullar arasında doğma Azərbaycanın müqəddəsliyini hər şeydən əziz tutan dağlar diyarı Lerikin qartal balası, mayor Amid Heydərov da var idi. Fəqət, Amidə şəhidlik yolunu göstərən Vətənə, torpağa məhəbbəti oldu. Odur ki, o, cismən aramızda olmasa da, mənən qəlblərdə yaşamaqla, hər an ehtiramla xatırlanır.***

Şərəfli ölümü Vətənə, millətə başıucalığı gətirən Amid Heydərovun şəhadətə qovuşmasının üçüncü ildönümü münasibətilə anım günü keçirildi. Lerik Rayon İcra Hakimiyyəti başçısı Əkbər Abbasovun, YAP Lerik Rayon Təşkilatının sədri Malik Mirzəyevin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərlərin, ictimaiyyət nümayəndələrin və şəhidin ailə üzvlərin iştirak etdiyi mərasimdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla anıldı və Azərbaycan Respublikasının Dövlət Himni oxundu.

Tədbir iştirakçıları ilk öncə şəhid Amid Heydərovun adını daşıyan parkda oldular, şəhidin abidəsi və məzarı önünə gül çiçək dəstələri düzərək, əziz xatirəsinə ehtiramını bildirdilər.

Çıxışlar zamanı natiqlər 44 günlük haqq savaşımızda rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfərdən, onun tarixi əhəmiyyətindən, Azərbaycan oğullarının ağır döyüş meydanlarda göstərdiyi qəhrəmanlıqdan və mayor Amid Heydərovun 32 illik şərəfli həyatından danışdılar.

Amid Rəbbil oğlu Heydərov 1988-ci il mayın 20-də Lerik şəhərində dünyaya gəlib . Valeh İbrahimov adına Lerik şəhər orta internat məktəbində bitirib, 2006-cı ildə Bakıda Ali Hərbi Akademiyaya qəbul olub. 2010-cu ildə buranı bitirən Amid Heydərov Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinə taqım komandiri təyin olunub. 2015-ci ildə baş leytenant hərbi rütbəsi alıb, 4 il bölük komandiri vəzifəsində işləyib. 2016-cı ilin Aprel döyüşlərində Lələ-təpə yüksəkliyinin azad edilməsi uğrunda yağıya qan uddurur, göstərdiyi xüsusi qəhrəmanlığa görə ona Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığı ilə vaxtından əvvəl kapitan hərbi rütbəsi verilib. O, 2020-ci ilin iyul ayında Tovuz də gedən döyüşlərdə də əsl qəhrəmanlıq göstərir, mayor rütbəsinə yüksəlir, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin komandiri vəzifəsinə təyin edilib. Həmçinin, sağlığında orduda misilsiz xidmətlərinə görə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalına layiq görülüb.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsində mayor Amidin döyüş yolu Qarabağın ən qaynar nöqtələrdən başlanır. Ölüm-dirim savaşlarda rəşadət nümunəsi göstərərək yağıya ciddi itkilər verir. Cəbrayılın azadlığı uğrunda gedən döyüşlər zamanı qəfil atılan yağı gülləsinə tuş gəlir, Vətən eşqli ürəyi əbədi dayanır. Lerik şəhərində sevdalandığı Vətən torpağının sinəsinə baş qoyur.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 dekabr tarixli 2336 nömrəli Sərəncamı əsasında Amid Heydərova ölümündən sonra "Vətən müharibəsi qəhrəmanı" adı verilir. Bundan əlavə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə də təltif olunur.

Lerik camaatı böyüklü-kiçikli Amid kimi bir qəhrəman Azərbaycana bəxş etdiyinə görə qürur duyur...

***Zəfər Orucoğlu, AJB üzvü***

# Xocalı qatili Balasanyan həkimlərin nəzarəti altındadır

***Xocalıda törədilmiş qətliamın iştirakçılarından biri, qondarma rejimdə müxtəlif postlar tutmuş Vitali Balasanyan hazırda Ermənistandadır.***

"Unikal" xəbər verir ki, bu barərə erməni KİV-ləri məlumat yayıb.

Qeyd olunub ki, Balasanyanın ürəyində ciddi problem var və o, hazırda həkimlərin nəzarəti altındadır.

Digər təfərrüatlar məlum deyil.

*Ağarza Elçinoğlu*

# Ukraynada prezident seçkiləri keçiriləcək?



***Ukrayna rəsmiləri hərbi vəziyyət şəraitində seçki kampaniyası keçirməyi düşünür, lakin seçkilər ölkənin hazırkı lideri Volodimir Zelenskinin legitimliyinə xələl gətirə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Amerikanın "New York Times" (NYT) nəşri məlumat yayıb.

Nəşrin yazdığına görə, Kiyevdə Zelenskinin "rəqabətli seçkilərin qeyri-mümkün olduğu şəraitdə özü üçün yeni müddət təmin etmək" üçün səsvermədə iştirak edə biləcəyi ilə bağlı şayiələr var. Bunun üçün Ukrayna hakimiyyəti müvəqqəti olaraq hərbi vəziyyəti ləğv etməli olacaq.

*Gülayə Mecid*

# "Azov" döyüşçüləri ukraynalı hərbçiləri güllələdilər

***"Azov" batalyonunun döyüşçüləri Kremenna rayonunda ukraynalı hərbçiləri güllələyiblər.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə ehtiyatda olan polkovnik-leytenantı, hərbi ekspert Andrey Maroçko məlumat verib.

Onun sözlərinə görə, "Azov" komandası üç hərbçini naməlum səbəbdən güllələyib və cəsədlərini çaya atıblar.

# Ermənipərəst ABŞ rəsmisi Yuri Kim işdən çıxarıldı

***ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kim vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, ABŞ Senatı onun yerinə Dövlət Departamentinin sanksiya siyasətinin keçmiş koordinatoru Ceyms O'Brayenin namizədliyini təsdiqləyib.

Onun namizədliyi prezident Co Bayden tərəfindən irəli sürülüb.

Qeyd edək ki, Yuri Kim Qarabağdakı antiterror əməliyyatından sonra ermənipərəst mövqeyi ilə gündəmə gəlmişdi.

*Ağarza Elçinoğlu*

# Rusiya "Abxaziya"da hərbi dəniz bazası yerləşdirir

***Rusiya qondarma "Abxaziya Respublikası"nın Oçamçir rayonunda Hərbi Dəniz Qüvvələrinin yeni daimi bazasını yaradır.***

"Unikal" xəbər verir ki, bu barədə "Abxaziya" rəhbəri Aslan Bjaniya "İzvestiya" qəzetinə müsahibəsində deyib. "Biz Rusiya ilə saziş imzalamışıq və yaxın gələcəkdə Oçamçir rayonunda Rusiya Hərbi Dəniz Qüvvələrinin daimi bazası olacaq", - Bjaniya bildirib.

Qeyd edək ki, Gürcüstan ərazisi olan Abxaziya Rusiya tərəfindən ilhaq edilib.

*Gülayə Mecid*

# ABŞ Qarabağla bağlı gizli görüşün detallarını açıqladı

***Vaşinqton həmçinin təsdiq edir ki, 19 sentyabr hərbi əməliyyatlarından əvvəl ABŞ, Aİ və Rusiya nümayəndələri İstanbulda görüşüblər.***



"Unikal" xəbər verir ki, bunu ABŞ Dövlət Departamentinin sözçünün müavini Vedant Patel brifinq zamanı deyib. O, görüşü gizli adlandırmayıb və ABŞ-nin regionda maraqlı tərəflərlə müntəzəm əlaqə saxladığını vurğulayıb.

Patel bəzi təfərrüatları təqdim edərək bildirib ki, onlar konkret təcili humanitar problemləri həll etmək və Qarabağa humanitar yardım göstərmək üçün İstanbula toplaşıblar. O, Cənubi Qafqazda sabit sülhə nail olmaq üçün ABŞ-nin iştirakını davam etdirdiyini və tərəfləri dəstəklədiyini deyib. Qeyd edək ki, Avropa İttifaqı, ABŞ və Rusiya nümayəndələri sentyabrın 17-də İstanbulda Qarabağla bağlı gizli danışıqlar aparıblar.

*Ağarza Elçinoğlu*

# Slovakiya prezidenti Ukraynaya hərbi yardımın əleyhinə çıxıb

***Slovakiya prezidenti Zuzana Çaputova keçmiş baş nazir Robert Fikonun Smer partiyasının qalib gəldiyi parlament seçkilərindən dərhal sonra Ukraynaya yeni hərbi yardım paketinin verilməsinə qarşı çıxıb.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin "Dennik N" portalı məlumat yayıb.

Nəşr qeyd edir ki, Slovakiya Müdafiə Nazirliyi Kiyevə əvvəlki hökumət tərəfindən təsdiq edilmiş növbəti hərbi yardım paketi göndərməli idi , lakin Çaputova "demokratik seçkilərin nəticələrinə hörmət etmək" lazım olduğunu vurğulayaraq bu qərarı təsdiqləməyib.

Bununla yanaşı, Smer-SD partiyası seçicilərə "Ukraynaya bir güllə də verməyəcəklərinə" söz verib. Slovakiya Prezidenti hesab edir ki, Smer-SD-nin mövqeyinə məhəl qoymamaq, digər partiyalar kimi, "gələcək üçün uğursuz presedent yarada bilər".

*Gülayə Mecid*



# Paşinyan 11 deputatı buna görə cəzalandıracaq

***Ermənistanın baş naziri Nikol Paşinyan oktyabrın 3-də Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun səsverməsində iştirak etməyən KP-nin 11 üzvünü cəzalandırmaq qərarına gəlib.***



"Unikal" xəbər verir ki, bu barədə "Hraparak" nəşri öz mənbələrinə istinadən məlumat yayıb.

Bildirilir ki, parlament işinin başlamasına bir gün qalmış KP fraksiyasının iclasında xüsusi göstəriş verilib: "Roma Əsasnaməsinin ratifikasiyası siyasi qərardır və bunu bir nəfər kimi etmək lazımdır. Hətta müzakirə olundu ki, ola bilsin ki, bəzi deputatlar həmin gün "xəstələnib" sessiyaya gəlməsinlər, amma belə bir "nəticəyə" gəliblər ki, ölümə yaxın deyillərsə, deməli, meydana çıxmağa məcburdurlar. KP fraksiyasının rəhbəri Hayk Konjoryan səsvermədən sonra KP deputatlarından izahat tələb edib. Kimin səsverməyə gəlmədiyi ilə bağlı bütün bəhanələr yaxın vaxtlarda kimin cəzalandırılmasına qərar verəcək Nikol Paşinyana məruzə edilib. KP-də onlar xüsusilə defektorlar Sergey Baqratyan və Şirak Torosyana qarşı yönəliblər, dünəndən zarafatyana deyirlər ki, defektatorlar yəqin ki, hakimiyyət dəyişikliyinin iyini alıblar və artıq göstərişlərə əməl etmirlər".

*Gülayə Mecid*

# ABŞ İrana xəbərdarlıq etdi

***"Əgər İranla gərginlik artarsa və regionda gəmiçiliklə bağlı rəsmi Tehran tərəfindən təhdidlər aşkar olunarsa, Amerika Birləşmiş Ştatları Fars körfəzi ərazisinə növbəti dəfə əlavə qüvvələr və aktivlər göndərməyə hazırdır".***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, bunu ABŞ Hərbi Hava Qüvvələri Mərkəzi Komandanlığının komandanı, general-leytenant Aleksus Qrinkeviç bəyan edib.

Onun sözlərinə görə, ABŞ-ın döyüşə hazır amfibiya qüvvəsi də daxil olmaqla, yerüstü gəmilərin genişləndirilmiş mövcudluğu İranın gəmiçiliyə qarşı hər hansı hərəkətindən çəkindirib:"Lakin bizim göndərməyə çalışdığımız mesaj ondan ibarətdir ki, biz konkret təhlükəyə cavab olaraq qüvvələr yaratmışıq ki, bu da regionun ABŞ üçün əhəmiyyətini nümayiş etdirir. Ümid edirəm ki, İran tərəfi siqnalı alıblar və uzun müddət mövqelərində qalacaqlar".

General əlavə edib ki, ABŞ-ın bu yaxınlarda əlavə qüvvələrinin, o cümlədən beşinci nəsil "F-35" qırıcı-bombardmançılarının Fars körfəzinə yerləşdirməsi Tehranın destruktiv planlarına təsir göstərib.



# Qurbanovun tərcüməçiliyini millimizin sabiq futbolçusu etdi

***"Qarabağ"ın Avropa Liqasının qrup mərhələsinin ikinci turunda İsveçin Göteborq şəhərində "Hekken" klubuna qarşı keçirəcəyi matçdan öncə keçirilən mətbuat konfransında maraqlı anlar yaşanıb.***

"Qafqazinfo" xəbər verir ki, Ağdam klubunun çalışdırıcısı Qurban Qurbanovun açıqlamalarını İsveç dilinə tərcümə etmək üçün gələn şəxs 1990-cı illərdə Azərbaycanda futbol oynamış Valeh Qafarov olub.

Keçmiş jurnalistlərdən bir neçəsi, eləcə də Qurban Qurbanov ona qarşı oynamış futbolçunu tanıyıb. Çalışdırıcıya "Valeh Qafarovu tanıdınızmı" sualını verəndə "bəli, yadımdadır, sürətli oyunçu idi" deyərək cavablayıb.

Valeh Qafarov millimizin sabiq oyunçusu olub. Azərbaycanın aşağı yaş millilərində oynayıb. O, həm də "Qarabağ"ın köməkçi məşqçisi Elçin Rəhmanovla "Neftçi"də birlikdə oynayıb.



2002-ci ildə Azərbaycan çempionatı dayandıqdan sonra V.Qafarov bir qızla tanış olaraq ölkəmizdən ayrılıb və İsveçə gəlib. Burada ailə həyatı qurub və bir klubda oynadıqdan sonra zədələnib. Hazırda isə məşqçiliyə başlayıb. O, "Örebro" klubunun 14 yaşlılardan ibarət qadın komandasının çalışdırıcısıdır.

"20 ildir ki, burada yaşayıram. Bakı üçün darıxıram. Arada gəlib-gedirəm. Burada qadın futboluna böyük diqqət ayrılıb. Azərbaycandan təklif gəlsə, orada işləməyə hazıram", - V. Qafarov bildirib.

Valeh Qafarov İsveçdə oynayan Azərbaycan millisinin üzvü və Qurban Qurbanovun oğlu Musa Qurbanlıdan, eləcə də yığmamızın sabiq oyunçusu Anatoli Panamaryovdan danışıb: "Musa ilə görüşmüşəm və ona dəstəyimi ifadə etmişəm. Nə kömək lazım olsa, hazıram. Musa burada uğurlu olacaq. Çünki o, İsveç futboluna çox uyğun gəlir. Yaxşı fiziki göstəricilərə sahibdir. Anatoli Panamaryovla illərdir münasibətimiz var. Onunla danışırıq, görüşürük".

Keçmiş futbolçu, həm də ilk dəfə tərcüməçilik etdiyini sözlərinə əlavə edib: "Anatoli Panamaryov mənə zəng vurdu ki, get tərcüməçilik et. Həqiqətən həyəcanlı idi. Ümid edirəm ki, hər şey yaxşı alındı".

# Çempionlar Liqasında gecənin nəticələri

***UEFA Çempionlar Liqasının qrup mərhələsində II tura yekun vurulub. Son oyun günündə 4 qrupda 8 görüş keçirilib.***

"Atletiko" doğma meydanda "Feyenoord"u qəbul edib. Bol qollu matçda sevinən ev sahibi komandası olub. "Şaxtyor" isə səfərdə "Antverpen"i peşiman edib. Turnirin son qalibi "Mançester Siti" Almaniyada "Leyptsiq"in qonağı olub. İngiltərə klubu qarşılaşmadan qalib ayrılıb.

UEFA Çempionlar Liqası, qrup mərhələsi

**II tur**

**E qrupu**

20:45. "Atletiko" (İspaniya) - "Feyenoord" (Niderland) - 3:2

23:00. "Seltik" (Şotlandiya) - "Latsio" (İtaliya) - 1:2



Xal durumu: "Atletiko" - 4, "Latsio" - 4, "Feyenoord" - 3, "Seltik" - 0.

**F qrupu**

23:00. "Borussiya" (Dortmund, Almaniya) - "Milan" (İtaliya) - 0:0

23:00. "Nyukasl" (İngiltərə) - PSJ (Fransa) - 4:1

Xal durumu: "Nyukasl" - 4, PSJ - 3, "Milan" - 2, "Borussiya" - 1.

**G qrupu**

23:00. "Leyptsiq" (Almaniya) - "Mançester Siti" (İngiltərə) - 1:3

23:00. "Srvena Zvezda" (Serbiya) - "Yanq Boyz" (İsveçrə) - 2:2

Xal durumu: "Mançester Siti" - 6,"Leyptsiq" - 3, "Srvena Zvezda" - 1, "Yanq Boyz" - 1.

**H qrupu**

20:45. "Antverpen" (Belçika) - "Şaxtyor" (Donetsk, Ukrayna) - 2:3

23:00. "Portu" (Portuqaliya) - "Barselona" (İspaniya) - 0:1

Xal durumu: "Barselona" - 6, "Portu" - 3, "Şaxtyor" - 3, "Antverpen" - 0.

# Azərbaycan millisinin baş məşqçisi: "Gəlsinlər, dəstəkləsinlər"

***DÇ-2024-ün elit-raund mərhələsi çərçivəsində növbəti oyununu oktyabrın 6-da keçirəcək Azərbaycan millisi Qazaxıstan yığması ilə qarşılaşacaq.***

Qol.az xəbər verir ki, üç gündür hazırlığını davam etdirən komandamız dünən taktiki planda çalışıb. Məşqdən sonra baş məşqçi Vitali Borisov Azərbaycan Futzal Federasiyasının saytına açıqlama verib:

"Toplanışa oktyabrın 2-də başlasaq da, ancaq bugünkü (dünən) məşqdə heyət tam olaraq iştirak edib. Ölkə xaricində çıxış edən legionerlərimizin gəlişindən sonra əsasən taktiki planda çalışmalara yer ayırmışıq. Komandada əhval-ruhiyyə yaxşıdır. Hamımız bu oyunu gözləyirik. Sevindirici məqam odur ki, komandada zədəli və cəzalı futzalçı yoxdur.

Rəqib çox təcrübəli futzalçılardan qurulub. Onlar da dəfələrlə dünya və



Avropa çempionatlarının final mərhələsində iştirak ediblər. Fərdi bacarığına görə seçilən futzalçıları var. Hər iki komanda meydana qələbə üçün çıxacaq. Maraqlı qarşılaşma gözləyir bizi. Doğma meydan amilindən istifadə etmək istəyirik. Bunu da bizə hiss etdirəcək qüvvə azarkeşlərimizdir. Onları tribunaya səsləyirik. Gəlsinlər, dəstəkləsinlər, oyunçularımız da onlardan güc-qüvvət alsın.

Heyətlə bağlı müəyyən dəyişiklik etmişik. Komandaya iki yeni futzalçı qoşulub. Qabriel illər əvvəl komandamızda oynayıb. Təcrübəli futzalçıdır. Murad isə "Baku Fire"in üzvüdür. Çempionat oyunlarında xoş təsir bağışladı. Buna görə də milliyə dəvət etdik. Hər ikisinin ümidlərimizi doğruldacağına inanırıq".



# "Barselona"da ciddi itki

***"Barselona"nın futbolçusu Robert Levandovski zədələnib.***

"Unikal" xəbər verir ki, polşalı hücumçu dünən "Portu"ya qarşı oyunda (1:0) zədələnərək, meydanı tərk edib.

Futbolçunun oyundan sonra axsaması diqqət çəkib.

# Bu oyunun biletləri 8 dəqiqəyə satıldı

***Türkiyə Millisinin AVRO-2024-ün seçmə mərhələsində Xorvatiya ilə səfər matçın 13 min bilet?i 8 dəqiqəyə satılıb.***

Xorvatiya Futbol Federasiyası bu barədə məlumat yayıb. Bildirilib ki, stadionda türkiyəli azarkeşlər üçün 5 % yer ayrılıb.

Qeyd edək ki, görüş oktyabrın 12-də Xorvatiyanın Osijek şəhərində baş tutacaq.

# "Hekken"in futbolçusu: "Güclü rəqibə qarşı möhtəşəm oyun olacaq"

***"Hekken"in futbolçusu Yohan Hammer Avropa Liqasının qrup mərhələsinin 2-ci turunda "Qarabağ"a qarşı oyun öncəsi fikirlərini bildirib.***

Qol.az klubun saytına istinadən xəbər verir ki, o deyib: "Ullevi"də Avropa Liqasının himnini eşitmək xüsusilə xoş olacaq. Bugünkü oyundan gözləntilərə gəlincə, onlar güclü rəqibə qarşı möhtəşəm oyun olacaq. Meydanda bacardığımız hər şeyi həyata keçirsək, qalib gəlmək ehtimalımız yüksəkdir". Qey edək ki, bu gün keçiriləcək "Hekken" - "Qarabağ" görüşü Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# Azərbaycan cüdoçusu dünya çempionu oldu

***Azərbaycan cüdoçusu Vüsal Qələndərzadə (73 kq) Portuqaliyanın Odivelas şəhərində keçirilən gənclərin dünya çempionatında final görüşünə çıxıb.***

Qol.az xəbər verir ki, o, finalda ABŞ təmsilçisi Cek Yonezukaya qalib gəlib.

Bu gün tatamiyə çıxan Süleyman Əliyev (73) və Fidan Əlizadə (57 kq) isə mübarizəni erkən dayandırıblar.

Qeyd edək ki, daha əvvəl Nizami İmranov (60 kq) mundialın gümüş medalını qazanıb.

